RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 268 (9147) CÜMƏ AXŞAMI, 8 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# "QARDAŞ YUMRUĞU"

## regionda təhlükəsizliyin təminatçısıdır



## Azərbaycanla Türkiyəni təhdid etməyə cəhd göstərənlər bundan nəticə çıxarmalıdırlar

Azərbaycanın İkinci Qarabağ müharibəsindəki hərbi-siyasi zəfəri ilə yaranan reallıqların əhatə dairəsi genişdir. Torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın Cənubi Qafqazda lider statusunu daha da möhkəmləndirməsi, Qarabağ və Zəngəzurda başlanan genişmiqyaslı bərpa və quruculuq işləri, regionda yeni əməkdaşlıq imkanlarının formalaşması kimi reallıqlar qələbənin məntiqi nəticələridir. Eyni zamanda bu zəfər bəlli həqiqətlərə yeni işıq saldı ki, bunlardan biri də daha da möhkəmlənən və sarsılmaz olan Azərbaycan-Türkiyə qardaşlığıdır.

### Reallıqları dərk etmək istəməyənlər üçün mesaj

Vətən savaşının ilk günlərindən Türkiyə Azərbaycanın yanında oldu. Türkiyənin siyasi-hərbi rəhbərliyi müharibənin ilk saatlarından Azərbaycanın haqq işini dəstəklədiyini bəyan etdi. 44 gün ərzində dünya bir daha Azərbaycan-Türkiyə qardaşlığına şahidlik etdi. Türk dünyasının öndərləri olan Heydər Əliyevin "Bir millət, iki dövlət", Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamları bu savaşda öz təsdiqini bir daha tapdı.

→ 7

## Əfsanəvi neftçi akademik Xoşbəxt Yusifzadənin adı verilmiş tanker suya buraxıldı




→ 2

## Azərbaycanla Həştərxan vilayəti arasında ənənəvi qonşuluq münasibətləri məmnunluq doğurur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının ayrı-ayrı vilayətləri, o cümlədən Həştərxan vilayəti ilə səmərəli əməkdaşlığın həyata keçirildiyini bildirdi və bu əməkdaşlığın Azərbaycan-Rusiya əlaqələrinin inkişafında rolunu qeyd etdi. Rusiya ilə ikitərəfli münasibətlərin 2022-ci ildə də uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev bu baxımdan qarşılıqlı səfərlərin və Bakıda keçirilən regionlararası forumun əhəmiyyətini vurğuladı. Azərbaycanla Həştərxan vilayəti arasında ənənəvi qonşuluq əlaqələrinin mövcudluğuna toxunan dövlətimizin başçısı əməkdaşlıqla bağlı planların həyata keçirilməsindən məmnunluğunu ifadə etdi.

→ 3

## Azərbaycanın özü qədər əbədi



Müstəqil Azərbaycan Heydər Əliyevin əbədiyaşar ideyaları və zəngin siyasi irsi əsasında tarixi nailiyyətlərə imza atır

→ 5

## İki dövlət, bir ordu

### Azərbaycanla Türkiyənin "Qardaş yumruğu" zəfər yürüşünün davamıdır

Antitürk qüvvələrə hərbi-siyasi mesaj xarakteri daşıyan "Qardaş yumruğu" təlimi Azərbaycan və Türkiyənin regionun təhlükəsizliyi üçün əzmlə çalışdıqlarını sübut edir. İki qardaş dövlətə qarşı terror-təxribat əməlləri törətmək istəyən qüvvələr, eləcə də Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə əngəl olanlar "Qardaş yumruğu"nun zərbəsini görmək istəmirlərsə, riyakarlığa son verməlidirlər.

→ 7

## İranda azərbaycanlıya ölüm hökmü kəsildi

### Soydaşlarımız Tehran rejiminin amansız repressiyasının əsas hədəfidir

İranda mövcud rejimə qarşı xalqın etirazına ordudan da dəstək verilib. Bununla bağlı görüntülər sosial şəbəkələrdə yayılıb və geniş müzakirələrə səbəb olub. Belə ki, İran ordusunun əsgəri vərəqəyə "mən onların rejiminin hərbi geyimini daşımağa məcburam, lakin sizi dəstəkləyirəm" sözlərini yazaraq etirazçılara dəstəyini ifadə edib.

→ 12

## Rusiyanın hərbi arsenalı zəifləyir

### Ukraynaya qarşı istifadə olunan İran PUA-ları şaxtaya tab gətirmir

Moskva və Tehran Rusiyada dron istehsalı ilə bağlı razılığa gəliblər. Ötən ay Ukrayna Silahlı Qüvvələrinin Hərbi Hava Qüvvələri komandanlığının sözçüsü Yuri İqnat Rusiya Federasiyasının Ukrayna ərazisinə indiyədək 400-dən çox İran kamikadze pilotsuz uçan aparatını buraxdığını bildirib. Dronların əksəriyyəti məhv edilib.

→ 12

## "Düşmənə qardaş yumruğu"

### Son hərbi təlimlər Türkiyə mediasının əsas gündəm mövzusu oldu

Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərinin şəxsi heyəti, döyüş və xüsusi təyinatlı mühəndis-istehkam texnikası, həmçinin hərbi aviasiya vasitələrinin cəlb olunması ilə keçirilən təlim Bakını, eləcə də Astara, Cəbrayıl və İmişli rayonlarını əhatə edib. Təlim Türkiyədə bir neçə yüzminlik tirajı olan qəzetlərin manşet mövzusu olub.

→ 10

# Əfsanəvi neftçi akademik Xoşbəxt Yusifzadənin adı verilmiş tanker suya buraxıldı

**Dekabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda inşa olunan "Akademik Xoşbəxt Yusifzadə" tankerinin istismara verilməsi mərasimində iştirak edib.**












AZƏRTAC xəbər verir ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev Prezident İlham Əliyevə raport verərək dedi: Xoş gəlmisiniz, cənab Prezident, yeni inşa edilmiş "Akademik Xoşbəxt Yusifzadə" gəmisi istismara hazırdır.

**Prezident İlham ƏLİYEV:** Salam. Xoş gördük. Təxminən üç il bundan əvvəl mən bu qərarı qəbul etdim və artıq gəmi hazırdır.

Akademik **Xoşbəxt YUSİFZADƏ:** Bəli, hazırdır.

Dövlət başçısına məlumat verildi ki, uzunluğu 141, eni 16,9 metr olan "Akademik Xoşbəxt Yusifzadə" tankerinin yükgötürmə qabiliyyəti 7800 tondur. Gəminin daimi heyəti 15 nəfərdən ibarətdir.

Tankerin inşasına 2019-cu ilin avqustunda başlanılıb. Gəmidə "Wartsila Finland Oy" (Finlandiya), "Wartsila Svanehoy A/S" (Norveç), "Carrier" (ABŞ), "Gürdesan Gemi Mak.San" və "Tic. A.Ş." (Türkiyə), "Tranzas" (Norveç), "Alfa-Laval" (İsveç) kimi tanınmış istehsalçıların avadanlıqları quraşdırılıb.

Yeni tanker Bakı gəmiqayırma zavodunda inşa olunan 4 tankerdən üçüncüsüdür. Bundan əvvəl istismara verilən "Laçın" (2019-cu il, dekabr) və "Kəlbəcər" (2021-ci il, sentyabr) neft tankerlərindən fərqli olaraq, "Akademik Xoşbəxt Yusifzadə" ilə həm neft, həm də kimyəvi məhsulların daşınması mümkündür. Gəminin suya oturumu ASCO-nun digər tankerləri ilə müqayisədə, maksimum yük götürməklə Xəzər hövzəsində nisbətən dayaz limanlara daxil olmağa və Rusiyanın su kanalları ilə Xəzərdən kənara yük daşımağa imkan yaradır.

Diqqətə çatdırılıb ki, hazırda ASCO-nun istifadəsində 21 tanker var. Gəmilərin yaş həddini nəzərə alaraq, tanker donanmasının yaxın gələcəkdə yenilənməsi planlaşdırılır.

Qeyd edək ki, "Akademik Xoşbəxt Yusifzadə" tankerinin inşası, eyni zamanda son illərdə yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərin tərkib hissəsidir. ASCO-nun Strateji İnkişaf Planına uyğun olaraq son illərdə 25 gəmi istismara verilib. Bu da ölkəmizin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılmasında, Azərbaycan ərazisindən artan tranzit yükdaşımalarına yaranan tələbatın ödənilməsində və dənizdə neft-qaz layihələrinin uğurla icrasında mühüm rol oynayır.

Ümumilikdə ASCO Bakı Gəmiqayırma Zavoduna indiyədək 10 gəminin tikintisi ilə bağlı sifariş verib. Onların artıq 9-nun, o cümlədən bir yedək, üç sərnişin, iki Ro-Pax tipli gəmi-bərənin və üç tankerin inşası başa çatdırılaraq istismara verilib. Gəmilərin tikintisi əsasən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin mənfəəti hesabına maliyyələşir. Bu da yerli gəmi tikintisi sənayesinin inkişafına töhfə verir.

Hazırda Qara dəniz və Aralıq dənizi hövzələrində Azərbaycan bayrağı altında 6 quru yük gəmisi və 3 tanker olmaqla, 9 gəmi istismar edilir. Bu gəmilərin heyət üzvləri tamamilə yerli mütəxəssislərdən ibarətdir.

❖ ❖ ❖

**Xoşbəxt YUSİFZADƏ:** Görün nə qədər şar asılıb?!

**Prezident İlham ƏLİYEV:** Sizin şərəfinizə. Təxminən üç il bundan əvvəl sizin yubileyinizi qeyd edərkən.

**Xoşbəxt YUSİFZADƏ:** Təxminən üç ildir, az qalıb.

**Prezident İlham ƏLİYEV:** 2020-ci ilin yanvar ayı, yubiley məclisində.

**Xoşbəxt YUSİFZADƏ:** Yanvarın 14-də. Üç ilə bir-iki ay qalıb.

**Prezident İlham ƏLİYEV:** Bir ay qalıb.

**Xoşbəxt YUSİFZADƏ:** Bir ay yarım qalıb.

**Prezident İlham ƏLİYEV:** Dedim, qərar qəbul edirəm ki, növbəti gəmi Xoşbəxt müəllimin adına olacaqdır və hamı üçün sürpriz olmuşdu, o cümlədən Xoşbəxt müəllim üçün. O bilmirdi mənim hədiyyəm nə olacaq, hədiyyəm də, bax bu oldu.

**Xoşbəxt YUSİFZADƏ:** Görürsünüz, mən həyatımı neçə illərdir dənizdə qoymuşam. Mən Sizə çox təşəkkürümü bildirirəm. Hörmətli Prezident, doğrudan da mənə böyük qiymət verdiniz, doğrudan da mənə çox böyük bir hədiyyə etdiniz. Bu, Sizin təkcə mənə yox, bütün neftçilərə olan hörmətinizdir. Ümumiyyətlə, Siz o vaxtlar elə bizimlə on il bir yerdə işləmisiniz. Prezident olandan sonra da elə gözünüz bizim üstümüzdədir. Bizim bütün nailiyyətlərimiz Sizinlə bağlıdır. Siz hamısı ilə fərəhlənirsiniz, bizə də diqqət yetirirsiniz.

Mən Sizə onu da deyim ki, cənab Heydər Əliyev 1969-cu ildə rəhbərliyə gələndən sonra bütün sahələrlə maraqlandı, hər yerlə, bizim neftçilərlə də maraqlandı. O vaxt dənizin dərinliyi 40 metr olan bütün sahələrində yataqlar kəşf olunmuşdu. Amma gəmiçilikdə gəmilər yox idi, az bir müddətdə 400-dən artıq gəmi aldı, kran gəmiləri, yükdaşıyan gəmilər. Bunların hamısı indi adları dünyada məşhur olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarının kəşf olunmasına imkan verdi. Doğrudan da cənab Heydər Əliyev sanki, neçə il öncə gələcəyi görürdü. Doğrudan da, böyük işlər gördü.

Təşəkkür edirəm Sizə, çox böyük iş gördünüz. Bu gün mənim demək olar ki, ən xoşbəxt günlərimdən biridir. Hər şeyi gözləyərdim, amma dənizdə mənim adıma gəmi olsun, vallah, bunu heç yatıb yuxuda da görə bilməzdim.

**Prezident İlham ƏLİYEV:** Bu, ədalətlidir.

**Xoşbəxt YUSİFZADƏ:** Özü də ki, tanker. Məsələ ondadır ki, bilirsiniz, mən demək olar bütün gəmilərdə, tankerdə də olmuşam. Çünki hava bərk külək olanda başqa gəmi ilə qırağa çıxmaq mümkün deyildi. Biz tankerlərlə qırağa çıxırdıq. Hörmətli Prezident, əgər insanın bədənini neft sənayesinə bənzətsək, gəmiçilik onun ayaqlarıdır. Gəmiçilik olmadan biz dənizdə heç bir iş görə bilməzdik. Dənizdə nə yataqlar açmışıq, nə işlər görmüşük, nə edirik, bunlar hamısı gəmiçiliklə əlaqədardır. Çünki biz suda bunsuz heç bir iş görə bilməzdik. Özü də bu gəmiçiliyin o biri gəmiçilikdən - dəniz gəmiçiliyindən fərqi ondadır ki, o birilər birbaşa bir limandan başqa limana gedir, amma bu, açıq dənizə çıxır, platformalara yaxınlaşır. Odur ki, sizin hamınıza, bütün bu kollektivə öz təşəkkürümü bildirirəm. Bu, böyük vəzifədir.

Daha nə deyim?! Bir daha təkrar edirəm ki, bu, mənim ən xoşbəxt günlərimdən biridir. Mən Sizə necə minnətdarlıq edim, necə təşəkkürümü bildirim?!

**Prezident İlham ƏLİYEV:** Sağ olun, Xoşbəxt müəllim.

**Xoşbəxt YUSİFZADƏ:** Daha mənim əlimdən nə gələr, ancaq onu bilirəm ki, Sizin xətrinizi dünya qədər istəyirəm, ölənə qədər də nə cənab Heydər Əliyev, nə də Siz mənim heç vaxt yadımdan çıxmayacaqsınız. Çox sağ olun, minnətdaram.

**Prezident İlham ƏLİYEV:** Sağ ol, Xoşbəxt müəllim. Siz Heydər Əliyevin işlərini xatırlatdınız. 1970-ci illərdə doğrudan da Azərbaycan neft sənayesinin yeni dövrü başlamışdır və siz də o işlərin iştirakçısı kimi o günləri yaxşı xatırlayırsınız. Məhz Heydər Əliyevin təşəbbüsü nəticəsində Azərbaycanda Xəzər dənizində neft-qaz yataqlarının işlənməsinə yeni təkan verildi. O cümlədən yaxşı xatırlayırsınız ki, məhz Heydər Əliyevin təşəbbüsü ilə və deyə bilərəm ki, təkidi ilə Dərin özüllər zavodu inşa edilmişdir. Hansı ki, o vaxt Həştərxanda planlaşdırılırdı. O, ondan xəbər tutdu, sovet hökumətinin yüksəkvəzifəli şəxslərinə müraciət etdi və sübut etdi ki, bu, Dərin Özüllər Zavodunun tikilməsi üçün ən məqbul yer Bakıdır, Azərbaycandır. Nə üçün? Çünki Xəzərin bütün neft-qaz sənayesinin mərkəzi bura idi və buna nail oldu.

İndi siz də yaxşı xatırlayırsınız ki, biz "Əsrin kontraktı" üzərində işləməyə başlayanda bu Dərin Özüllər Zavodunun bizdə olmasının nə qədər böyük əhəmiyyəti var idi. Çünki əgər bu zavod olmasaydı, bizim bütün kontraktlarımızın icrası bəlkə də 5-10 il gecikə bilərdi. Yəni o vaxt bunu etdi və müstəqillik dövründə Heydər Əliyev neft strategiyasının icraçıları kimi biz sizinlə "Əsrin kontraktı" üzərində digər yoldaşlarla bərabər işləmişik və o günləri də həmişə xatırlayırıq. Bu gün inkişaf edən, güclənən Azərbaycanın təməli məhz o vaxt qoyuldu. Əgər o kontrakt imzalanmasaydı, bizim gəlirlərimiz olmayacaqdı. Gəlir olmayan yerdə hər hansı bir inkişafdan söhbət gedə bilməz.

Bu gün biz Ulu Öndərin siyasətinə sadiq qalaraq yeni nəqliyyat infrastrukturu obyektlərini yaradırıq. Bax bu tankerin yaradılmasının təməli 9 il bundan əvvəl gəmiqayırma zavodunun istismara verilməsi ilə qoyulmuşdur. O qərarı da mən qəbul etmişdim, bunu biz həll etdik. O vaxt bəziləri hesab edirdi ki, buna ehtiyac yoxdur. Onsuz da biz başqa ölkələrdən gəmilər, tankerlər alırıq. Amma mən bilirdim ki, bunun böyük əhəmiyyəti olacaq. İndi heç kimdən asılı deyilik, həm peşəkar komanda var, həm təcrübə var. Deməli, burada bütün inşaat işləri yerli mütəxəssislər tərəfindən aparılır. Biz hər il bir neçə tanker, quru yük gəmisi, "Ro-Ro" gəmisi, bərə inşa edə bilirik. Bu gəminin sizin adınıza olması hesab edirəm ki, çox ədalətlidir. Düzdür, bu, nadir bir haldır, bəlkə də deyə bilərəm ki, yeganə bir haldır, insanın sağlığında gəmiyə onun adı verilir. Amma bu ədalətlidir. Bilirsiniz ki, mənim sizə çox böyük hörmətim var - həm mütəxəssis kimi, əfsanəvi neftçi kimi, gözəl insan kimi. Bax bu gün sizin bizimlə bərabər burada olmağınız bir çoxlarını ruhlandırır ki, elə bu yaşda da adam gümrahdır. Sağlamlığı da yerindədir və öz nikbinliyi ilə hamımızı daha gözəl işlər görməyə ruhlandırır. Ona görə təbrik edirəm, Xoşbəxt müəllim.

**Xoşbəxt YUSİFZADƏ:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Mən yubiley tədbirində demişdim ki, bu tankerin açılışını bərabər edəcəyik. Bax bu gün gəldi.

**Xoşbəxt YUSİFZADƏ:** Sizin o qədər işiniz var. Bununla bərabər, gəlib burada tankerin istismara verilməsində iştirak etməyiniz doğrudan da bizim hamımız üçün, burada olanlar üçün böyük fəxrdir. Biz hamımız Sizə minnətdarlığımızı bildiririk. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Xoşbəxt YUSİFZADƏ:** Mən Prezidentlə bir yerdə lent kəsirəm, bunu heç yaddan çıxartmaq olar?

**Prezident İlham ƏLİYEV:** Təbrik edirik.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev və akademik Xoşbəxt Yusifzadə tankerin istismara verilməsini bildirən lenti kəsdilər.

Sonda xatirə şəkilləri çəkdirildi.

## *Xoşbəxt YUSİFZADƏ:*

## "Adımın tankerə verilməsi Prezident İlham Əliyevin təşəbbüsüdür"

Bu gün özümü adım kimi çox xoşbəxt hiss edirəm. Bu, mənim üçün bir bayram günüdür.

Hörmətli Prezidentimiz İlham Əliyevin mənim adım verilən tankerin istismara verilməsi mərasimində iştirak etməsi mənim üçün böyük bir hədiyyə oldu.

Bunu AZƏRTAC-a müsahibəsində görkəmli neftçi-alim və geoloq, SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə deyib.

Xoşbəxt Yusifzadə bildirib: "Ümumiyyətlə, bu tankerə mənim adımın verilməsi Prezident İlham Əliyevin təşəbbüsüdür. Dövlətimizin başçısı 90 illik yubileyimdə bu təkliflə çıxış etdi və bu gün də gəminin suya buraxılması mərasimində iştirak etdi. Ona görə bu gün mənim üçün çox əziz gündür".

❖ ❖ ❖

Qeyd edək ki, dünyada postpandemiya, geosiyasi təlatümlər, münaqişə ocaqları və iqtisadi-maliyyə böhranının yaratdığı problemlər fonunda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafı tam təmin olunur. Bu gün Azərbaycan strateji əhəmiyyətə malik məhsulları özü istehsal edir. Bakıdakı zavodlarda gəmilərin istehsalı, o cümlədən "Akademik Xoşbəxt Yusifzadə" tankerinin inşa olunaraq istismara verilməsi bunun əyani təzahürüdür.

Şübhəsiz ki, bu cür mühüm əhəmiyyətə malik istehsalın ölkəmizdə təmin olunması iqtisadi qüdrətimizi və Azərbaycanda həyata keçirilən böyük sosial-iqtisadi infrastruktur layihələrinin ardıcıl şəkildə davam etdiyini göstərməklə, gəmiçiliyin fəaliyyətinin şaxələndirilməsi ilə bağlı görülən işlərin həcmini aydın şəkildə nümayiş etdirir.

Onu da qeyd edək ki, Azərbaycanın dəniz nəqliyyatı tarixində 1957-ci ildən sonra ilk dəfədir hər hansı bir gəmiyə həyatda olan şəxsin adı verilir. Bu da ölkəmizin neft sənayesinin canlı əfsanəsi, görkəmli neftçi-alim və geoloq, SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə diqqət və qayğının, eləcə də böyük hörmətin göstəricisidir. Tankerə bu ad 2020-ci il yanvarın 15-də Xoşbəxt Yusifzadənin 90 illik yubileyi ilə bağlı Prezident İlham Əliyevin əlavə tədbirlər haqqında imzaladığı Sərəncama əsasən verilib.

# Azərbaycanla Həştərxan vilayəti arasında ənənəvi qonşuluq münasibətləri məmnunluq doğurur



Əvvəli 1-ci səh.

Xoş sözlərə görə minnətdarlığını bildirən İqor Babuşkin Rusiya Federasiyasının Həştərxan vilayətinin ölkəmizlə əməkdaşlığının uğurla davam etdiyini deyərək, bu ilin 9 ayının nəticələrinə əsasən, yükdaşımalarının 4 dəfə artmasını əlaqələrin yaxşı göstəricisi kimi dəyərləndirdi, eyni zamanda ixrac və idxal məhsullarının çeşidinin genişləndiyini diqqətə çatdırdı. Qonaq Bakıda keçirilən regionlararası forumun əhəmiyyətini vurğulayaraq Həştərxan vilayəti ilə Azərbaycan arasında əməkdaşlığın Azərbaycan-Rusiya əlaqələrinin genişlənməsi işinə töhfə verdiyini məmnunluqla qeyd etdi.

Görüşdə Heydər Əliyev Fondunun Həştərxan vilayətində həyata keçirdiyi layihələrin əhəmiyyətinə toxunuldu, gələn il Ulu Öndərin anadan olmasının 100 illiyi ilə bağlı Həştərxanda bir sıra tədbirlərin keçiriləcəyi bildirildi.

Söhbət zamanı humanitar sahədə əməkdaşlıq məsələləri də müzakirə olundu.

Sonda xatirə şəkli çəkdirildi.

# "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 65) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənddə "2020-ci" sözləri "2023-cü" sözləri ilə əvəz edilsin;

1.2. 1.2-ci bənddə "2020-ci ildə" sözləri "2020-2022-ci illərdə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2022-ci il*

# Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının növbəti iclası keçirilib

Dekabrın 7-də Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri, AİH-nin Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində AİH-nin idarəetməsinə verilmiş portfel şirkətlərinin 2022-ci ilin birinci yarımilliyi üzrə fəaliyyət hesabatı, onların korporativ idarəetmə standartları, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin hüquqi-korporativ strukturunun təkmilləşdirilməsi və istiqraz buraxılışı, "Azərbaycan Hava Yolları" QSC-yə aid xüsusi əhəmiyyətli əqdin bağlanması və digər cari məsələlər ətraflı müzakirə olunub.

Tədbirdə Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri Mətin Eynullayevin və baş icraçı direktoru Ruslan Əlixanovun, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyevin məruzələri dinlənilib.

İclasın yekununda müzakirə olunan məsələlər barədə qərarlar qəbul edilib və AİH-nin İdarə Heyətinə müvafiq tapşırıqlar verilib.

# Azərbaycanla Aİ arasında müxtəlif sahələrdə əməkdaşlıq gündəliyi müzakirə edildi

Dekabrın 7-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropa Komissiyasının Qonşuluq və Genişlənmə Danışıqları üzrə Baş Direktorluğunda Şərq Qonşuluğu və İnstitusional Quruculuq üzrə direktor Lourens Mereditin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və Avropa İttifaqı (Aİ) arasında müxtəlif istiqamətlər, xüsusilə iqtisadi, enerji, investisiya, nəqliyyat və digər sahələrdə mövcud əməkdaşlıq gündəliyi, həmçinin regional vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Aİ ilə əsas əməkdaşlıq istiqamətlərindən biri olan enerji təhlükəsizliyi sahəsindən bəhs edərək, bu sahədə Azərbaycan ilə Avropa İttifaqı arasında 2022-ci il iyulun 18-də anlaşma memorandumunun imzalanmasının Aİ-yə qaz ixracının artırılması ilə yanaşı, alternativ enerji mənbələrinin inkişafı məqsədilə əməkdaşlıq baxımından vacibliyini vurğulayıb. Nəqliyyat dəhlizləri sahəsində səylərin artırılması istiqamətində fəaliyyətimizin nəticəsi kimi Azərbaycandan keçən yüklərin həcmində artımın müşahidə edilməsinin müsbət hal olduğu bildirilib. İnvestisiyaların təşviqinə əhəmiyyət verən ölkələrdən biri kimi Azərbaycanın xüsusilə "nou-hau" fəaliyyətində sərmayə qoyuluşunu təşviq etdiyi bildirilib. İşğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərinə yatırımların edilməsi ilə bağlı Aİ-nin maraq göstərməsi məmnunluqla qeyd olunub.

Nazir Ceyhun Bayramov həmçinin postmünaqişə dövründə regionda mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Ermənistanın görülən işlərə hədə törədən təxribatları, habelə mina təhlükəsi barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Bu xüsusda Ermənistanın 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərini yerinə yetirməməsinin regionda sülh, təhlükəsizlik və inkişafa əsas təhdid olduğu diqqətə çatdırılıb.

Lourens Meredit yuxarıda adıçəkilən anlaşma memorandumunun Azərbaycan və Aİ arasında münasibətlərin inkişafında görülən işlərin nəticəsi kimi mühüm əhəmiyyət kəsb etdiyini söyləyib. Orta dəhlizin həyata keçirilməsində irəli sürdüyü təşəbbüs və göstərdiyi fəallığın Azərbaycanı nəqliyyat və tranzit sahəsində mühüm tərəfdaşlardan birinə çevirdiyi qeyd olunub. Lourens Meredit həmçinin bölgələrdə iqtisadi inkişaf, orta və kiçik sahibkarlıq, alternativ enerji, nəqliyyat və rəqəmsal inkişaf sahələrinə sərmayə qoyuluşunun Aİ üçün prioritet olduğunu vurğulayıb. Azərbaycanın sözügedən sahələrdə yenilik və innovasiyaları dəstəkləyən baxışının təqdirəlayiq olduğu bildirilib. Lourens Meredit ciddi hədə törədən mina təhlükəsinin aradan qaldırılması üçün əməkdaşlıq və həmrəyliyin vacibliyini qeyd edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Prokurorluqda aparılmış islahatlar əhalinin hüquqlarının qorunmasını gücləndirib

10 Dekabr - Ümumdünya İnsan Hüquqları Günü ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Milli Məclisin, həmçinin hüquq-mühafizə orqanlarının, insan hüquqları üzrə təsisatların yüksəkvəzifəli şəxsləri, Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası və digər beynəlxalq təşkilatların, vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatlarının və media nümayəndələrinin iştirakı ilə Baş Prokurorluqda "İnsan hüquqlarının əsas təminatları" mövzusunda konfrans keçirilib.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, konfransda çıxış edən Azərbaycanın baş prokuroru Kamran Əliyev milli dövlətçiliyimizin əsasını qoymuş, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə demokratik və hüquqi dövlət quruculuğu istiqamətində aparılan islahatlarla insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş kompleks mexanizm və tədbirlərin formalaşdırıldığını bildirməklə insan hüquq və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edən Ulu Öndərin müəllifi olduğu Azərbaycanın ilk milli Konstitusiyasının qəbul olunması ilə ölkəmizdə bu sahədə keyfiyyətcə yeni mərhələnin başlandığını, çoxsaylı normativ-hüquqi aktların, dövlət proqramlarının qəbul edildiyini diqqətə çatdırıb.

Qeyd edilib ki, Ümummilli Liderin layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən müasir dövrün çağırışları və cəmiyyətin inkişafından irəli gələn tələblər nəzərə alınmaqla aparılmış məqsədyönlü tədbirlər insan hüquq və azadlıqlarının müdafiəsində səmərəliliyi artırmaqla hüquq müdafiə mexanizmlərinin təkmilləşdirilməsinə, əhalinin müxtəlif qruplarının hüquqlarının qorunmasının gücləndirilməsinə zəmin yaradıb.

Konfransda prokurorluq orqanlarının vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin edilməsində digər qurumlarla əlaqəli şəkildə üzərilərinə düşən vəzifələri layiqincə icra etdiyi bildirilməklə bu sahədə birgə əməkdaşlığın önəmi vurğulanıb.

Tədbirdə İnsan hüquqlarının müdafiəsi üçün Avropa Şurası alətləri, qaçqınlar, məcburi köçkünlər və insan hüquqları, vətən müharibəsindəki Qələbə kontekstində insan haqlarına yeni baxış, insan hüquqlarının təminatına xidmət edən məhkəmə-hüquq islahatları, insan hüquqlarının təminatında məhkəmə hakimiyyətinin, o cümlədən prokuror nəzarətinin rolu, insan hüquq və azadlıqlarının müdafiə mexanizmlərinin fəaliyyətində vəkillərin yeri və rolu, insan hüquqlarının təmin edilməsində konstitusiya nəzarətinin, habelə Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin rolu, Azərbaycanda dayanıqlı inkişafın təmin olunmasında qadın və uşaq hüquqlarının əhəmiyyəti, uşaq hüquqlarının təmin edilməsində prokurorluq orqanlarının rolu, cinayət prosesinin ayrılmaz tərkib hissəsi kimi azadlıq hüququnun təmin edilməsi mövzularında çıxışlar edilərək ətraflı müzakirələr aparılıb.

# Qanunvericilik bazası təkmilləşdirilir



Dekabrın 7-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov gündəlik barədə məlumat verərək deyib ki, müzakirəyə çıxarılan qanun layihələri bir-biri ilə bağlıdır. O, gündəliyin birinci məsələsi olan "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanun layihəsini (birinci oxunuş) müzakirəyə təqdim edərək bildirib ki, hazırda qüvvədə olan "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunun əvəzlənməsi üçün hazırlanmış bu yeni qanun layihəsi FATF-nin (Maliyyə Tədbirləri üzrə İşçi Qrup) tövsiyələri əsasında hazırlanıb.

Yeni qanun layihəsi cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin aşkar edilməsi, qarşısının alınması və ölkənin iqtisadi sistemindən qeyri-qanuni məqsədlər üçün istifadə olunma imkanlarını istisna edən şəraitin yaradılması, bu istiqamətdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi, habelə dövlətin və cəmiyyətin maraqlarının qorunması məqsədilə effektiv ölkədaxili və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir.

Müzakirələrdə deputatlar Aydın Mirzəzadə, Aqil Abbas və Arzu Nağıyevin sənədlə bağlı fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İkinci məsələ - "Hədəfli maliyyə sanksiyaları haqqında" qanun layihəsi (birinci oxunuş) ilə bağlı çıxış edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili terrorçuluğun və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizədə onun iqtisadi kökünün, maliyyə mənbələrinin kəsilməsinin əhəmiyyətindən danışıb. Komitə sədri narkotrafik, terror və kütləvi qırğın silahlarının yayılmasının maliyyə mənbələrinin kəsilməsi istiqamətində beynəlxalq təcrübədən danışıb. Azərbaycanın bu sahədə dayanıqlı bank-maliyyə sisteminə malik olduğunu vurğulayan Tahir Mirkişili bildirib ki, yeni qanun layihəsi eyni zamanda ölkəmizin beynəlxalq müstəvidə müvafiq fəaliyyətinin hüquqi çərçivəsinin yaradılmasına xidmət edir.

Qanun layihəsi barədə geniş arayış verən Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Nizami Səfərov bildirib ki, qanun layihəsi BMT Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə uyğun olaraq terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə hədəfli maliyyə sanksiyalarının (HMS) tətbiqinin hüquqi əsasını və qaydasını müəyyən edir. Deputat qeyd edib ki, 13 maddədən ibarət sənəddə hədəfli sanksiyaların tətbiqinə dair bütün məsələlər öz əksini tapıb.

Qanun layihəsi ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli, deputatlar Vüqar Bayramov, Arzu Nağıyev və Elnur Allahverdiyev çıxış edərək sənədlə bağlı fikirlərini bildiriblər, qeydlərini səsləndiriblər.

Qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

Üçüncü məsələ ilə bağlı deputat Nizami Səfərov bildirib ki, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" yeni qanun layihələrinin hazırlanması ilə əlaqədar Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində (birinci oxunuş) məcəllələrə müvafiq dəyişikliklərin edilməsi təklif olunub.

Qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

Deputatlar həmçinin "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" yeni qanun layihələrindən irəli gələrək hazırlanmış Mənzil Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Nağdsiz hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) də nəzərdən keçirərək Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

İclasda deputatlar Elman Məmmədov, Bəxtiyar Sadıqov, Mahir Abbaszadə, Rüfət Quliyev, Anar Məmmədov, İqbal Məmmədov, Ziyad Səmədzadə və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Azərbaycanla Türkmənistan parlamentlərarası əlaqələr sahəsində də uğurla əməkdaşlıq edirlər

Milli Məclisin Sədri Sahibə Qafarova Türkmənistana rəsmi səfəri çərçivəsində bu ölkənin Milli Qenqeşi Məclisinin Sədri Gülşat Məmmədova ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlament nümayəndə heyətini səmimiyyətlə salamlayan Gülşat Məmmədova dost və qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olmasından danışıb.

Gülşat Məmmədova cari ilin iyun ayında Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakıda keçirilən birinci konfransında iştirak etmək məqsədilə Azərbaycana səfər etdiyini və bu səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarova ilə görüşünü razılıqla xatırlayaraq, səfərdən və Bakı konfransından yüksək təəssüratlarını bölüşüb. O, ölkəsinin Parlament Şəbəkəsində təmsilçiliyə böyük əhəmiyyət verdiyini deyərək, bu platformanın parlament diplomatiyasının imkanlarından daha səmərəli faydalanmaq baxımından önəmli olduğunu vurğulayıb.



Digər sahələrdə olduğu kimi, parlamentlərarası əlaqələr sahəsində də ölkələrimizin uğurla əməkdaşlıq etdiklərini bildirən Milli Qenqeşi Məclisinin sədri o cümlədən beynəlxalq parlament təşkilatlarında səmərəli əməkdaşlıq edildiyini diqqətə çatdırıb. O, Azərbaycan Milli Məclisi Sədrinin bu səfərinin parlamentlərimiz arasında mövcud olan münasibətlərin daha da genişlənməsinə xidmət edəcəyini vurğulayıb.

Görüşdə Azərbaycan parlament nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə, minnətdarlığını bildirən spiker Sahibə Qafarova Milli Məclisin Sədri kimi Türkmənistana ilk dəfə rəsmi səfər etdiyini xatırladıb və ümidvar olduğunu bildirib ki, bu səfər iki parlament arasında olan münasibətlərə yeni təkan verəcək.

Milli Məclisin Sədri qeyd edib ki, ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətləri inkişaf edir. Bizim xalqlarımızı ortaq tariximiz, dilimiz, dinimiz, mədəniyyətimiz birləşdirir. Spiker Sahibə Qafarova bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğunu xatırladaraq deyib ki, ötən illər ərzində hər iki ölkə uzun bir yol keçib. Həm Azərbaycan, həm də Türkmənistan müstəqil, inkişaf etmiş, beynəlxalq münasibətlər sistemində öz yerlərini tutmuş ölkələrdir. Milli Məclisin Sədri ölkələrimiz arasında münasibətlərin hazırkı yüksək səviyyədə inkişafında dövlət başçılarının rolunu xüsusi vurğulayıb. Ölkələrimizin beynəlxalq təşkilatlarda həmişə bir-birinə dəstək olduğunu bildirən Sahibə Qafarova qeyd edib ki, iki ölkə arasında olan münasibətlərdə parlamentlərin öz yeri var. O, qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyətini qeyd edib və bu əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıb. Həmçinin bildirilib ki, parlament komitələri arasında əməkdaşlıq əlaqələrə töhfə verə bilər.

Gülşat Məmmədova ilə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin iyun ayında keçirilmiş Bakı konfransında görüşünü məmnunluqla xatırlayan spiker Sahibə Qafarova qeyd edib ki, ikinci konfransın gələn ilin martında Parlamentlərarası İttifaqın 146-cı Assambleyası çərçivəsində Manamada keçirilməsi nəzərdə tutulur. O diqqətə çatdırıb ki, hazırda Parlament Şəbəkəsi çərçivəsində bir sıra məsələlər üzərində işlər davam edir. Bunlardan biri şəbəkənin beynəlxalq aləmdə daha geniş şəkildə tanıdılması, digər parlament təşkilatları ilə əlaqələrinin genişləndirilməsidir. O, görülən təşkilati işlər barədə məlumat verib.

Görüşdə Milli Məclisin Sədri hazırda regionda gedən proseslər, postmünaqişə dövründə Azərbaycanın daimi sülh və təhlükəsizliyin təmin olunması istiqamətində təşəbbüsləri, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən böyük quruculuq və bərpa işləri, həmçinin Ermənistan tərəfindən sülh prosesinə qarşı törədilən siyasi və hərbi təxribatlar barədə geniş məlumat verib.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Türkmənistan Milli Qenqeşi Məclisində çıxış edib





**Milli Məclisin Sədri Sahibə Qafarova Türkmənistana rəsmi səfəri çərçivəsində dekabrın 7-də bu ölkənin Milli Qenqeşi Məclisində çıxış edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, öz çıxışında Sahibə Qafarova diqqətə çatdırıb ki, Milli Məclisin Sədri olaraq onun Türkmənistana ilk rəsmi səfəri Azərbaycan Respublikası ilə Türkmənistan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinə təsadüf edir. Əsrlərboyu sülh şəraitində yaşamış xalqlarımızı ortaq tarix, mədəniyyət, dil və din birləşdirir. Son illərdə dövlət başçılarımızın qətiyyəti sayəsində siyasi, iqtisadi, nəqliyyat, energetika, humanitar və digər sahələri əhatə edən ikitərəfli əlaqələrimiz daha da genişlənərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Bu gün ölkələrimizdə bir sıra sahələr üzrə görülən işlər, həyata keçirilən layihələr nəinki ikitərəfli əlaqələrimizin güclənməsinə töhfə verir, eyni zamanda regionumuzda və daha geniş məkanda sabitliyə, rifaha, davamlı inkişafa və əməkdaşlığa xidmət edir.

Ölkələrimiz təmsil olunduqları beynəlxalq təşkilatlar çərçivəsində də bir-birinə qarşılıqlı dəstək nümayiş etdirirlər. Milli Məclisin Sədri fürsətdən istifadə edərək bir neçə gündən sonra qeyd olunacaq Türkmənistanın neytrallığının beynəlxalq aləmdə tanınmasının növbəti ildönümü münasibətilə qardaş Türkmənistan xalqını təbrik edib. O, bildirib ki, BMT-nin Türkmənistanın neytrallığını tanıyan qətnaməsinə Azərbaycan da həmmüəllif kimi qoşulub. Azərbaycan Prezidenti cənab İlham Əliyev Türkmənistanın neytrallıq statusunun əhəmiyyətini qeyd edərək, Türkmənistanın müstəqil xarici siyasət nəticəsində beynəlxalq aləmdə böyük nüfuz qazandığını vurğulayıb.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, qardaş ölkələrimiz arasındakı münasibətlərin bugünkü səviyyəsi xalqlarımızın təmsilçiləri olaraq, biz parlament üzvlərini də mövcud əlaqələrimizi daha da genişləndirməyə təşviq edir. Bu gün qanunvericilik orqanlarımız arasında çox səmərəli əməkdaşlıq qurulub. Parlament sədrlərinin və üzvlərinin qarşılıqlı səfərləri, müxtəlif beynəlxalq tədbirlər çərçivəsində görüşləri, dostluq qruplarımızın birgə fəaliyyəti insanlarımız arasında əlaqələrin güclənməsinə və ölkələrimiz arasındakı qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsinə töhfə verir. Bu gün Azərbaycan Respublikasının Milli Məclisi ilə Türkmənistan Milli Qenqeşinin Xalq Məsləhəti arasında imzalacağımız əməkdaşlıq haqqında memorandum da məhz bu məqsədə xidmət edir.

Milli Məclisin Sədri bildirib ki, parlament diplomatiyasının əhəmiyyətinin artdığı indiki dövrdə beynəlxalq parlament təşkilatları çərçivəsində işbirliyi də xüsusi aktuallıq qazanır. Parlament nümayəndə heyətlərimiz Parlamentlərarası İttifaq, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı, ATƏT Parlament Assamleyası kimi beynəlxalq təşkilatlarda uğurla əməkdaşlıq edirlər. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ötən ilin noyabrında Madrid şəhərində yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi parlamentlərimiz arasında çoxtərəfli əməkdaşlığın daha da gücləndirilməsi baxımından əhəmiyyətli platformadır.

Azərbaycan parlamentinin rəhbəri iclas iştirakçılarına Azərbaycanın bugünkü reallıqları barədə məlumat verib. O bildirib ki, qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan 1918-ci ildə müsəlman Şərqində ilk demokratik parlament respublikası yaratsa da, bu respublika cəmi 23 ay yaşadı. 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini yenidən bərpa etdi. İlk illərdə gərgin siyasi-iqtisadi vəziyyət, vətəndaş müharibəsi təhlükəsi, Ermənistan tərəfindən torpaqlarımızın işğalı səbəbindən ölkəmiz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdi. Yalnız Azərbaycan xalqının təkidi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin qətiyyəti, böyük təcrübəsi və uzaqgörən siyasəti sayəsində ölkəmiz öz müstəqilliyini qoruyub saxlaya bildi, dövlətçiliyin əsasları formalaşdırıldı və iqtisadi inkişafı təmin edən mühüm layihələr həyata keçirildi. Hazırda Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir və əldə olunan uğurların təməlində məhz bu amil dayanır.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, 2003-cü ildən bu günə qədər Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edərək 3 dəfədən çox artıb. Qeyri-neft sektorunun inkişafı hesabına iqtisadiyyatın şaxələndirilməsi əsas prioritet kimi müəyyən edilib. Aparılmış sosial-iqtisadi islahatlar nəticəsində işsizlik təqribən 6 faizədək azalıb, yoxsulluq səviyyəsi isə 49 faizdən təqribən 5 faizə enib. Ümumilikdə Azərbaycan iqtisadiyyatına 280 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb ki, bunun da yarısı xarici sərmayədir.

Enerji sektorunda düşünülmüş strategiya, irihəcmli investisiyalar və Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP, "Cənub qaz dəhlizi" kimi neft və qaz layihələrinin həyata keçirilməsi ilə Azərbaycan etibarlı enerjisi ixracatçısına çevrilərək, öz tərəfdaşlarının enerji təhlükəsizliyinə töhfə verir.

Ölkəmizdə ən müasir nəqliyyat infrastrukturu yaradılıb. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin üzərində yerləşən Azərbaycan bu gün Avrasiyanın əsas nəqliyyat və logistika mərkəzlərindən biridir.

Bu gün Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan müstəqil siyasət həyata keçirir. Azərbaycanın irəli sürdüyü bütün təşəbbüslərin mərkəzində sülh, təhlükəsizlik və əməkdaşlıq məqsədləri dayanır. Azərbaycan 155 dövlətin dəstəyi ilə 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib ki, bu da beynəlxalq ictimaiyyətin ölkəmizə etimadının səviyyəsini nümayiş etdirir. Hazırda Azərbaycan BMT-dən sonra dünyanın ikinci ən böyük beynəlxalq təsisatı olan Qoşulmama Hərəkatına uğurla sədrlik edir. Azərbaycanın müasir dövrün çağırışlarına qarşı mübarizədə qlobal həmrəyliyin gücləndirilməsi məqsədilə irəli sürdüyü təşəbbüslərə Türkmənistanın göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndiririk.

Spiker Sahibə Qafarova çıxışında qeyd edib ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi 30 ilə yaxın müddət ərzində qonşumuz Ermənistanın işğalı altında qalmışdı. Təəssüflər olsun ki, məsələ ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, digər beynəlxalq təşkilatların çoxsaylı qərar və qətnamələri yerinə yetirilməmişdir.

İşğal dövründə Ermənistan bütün kənd və şəhərlərimizi tamamilə dağıdıb, tarixi, mədəni və dini abidələrimizi vandalizmə məruz qoyub, məscidlərimiz, müqəddəs ocaqlarımız təhqir olunub. Ermənistanın apardığı etnik təmizləmə nəticəsində 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan 1992-ci ildə Xocalı soyqırımını törədərək, yüzlərlə azərbaycanlını qəddarlıqla qətlə yetirib. Birinci Qarabağ müharibəsindən sonra 3900-ə yaxın azərbaycanlı hələ də itkindir.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, 2020-ci ildə Azərbaycan 44 günlük Vətən müharibəsində tarixi zəfər əldə edərək, öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin icrasını özü təmin edib.

Torpaqlarımız işğaldan azad olunduqdan dərhal sonra Azərbaycan öz vəsaiti hesabına həmin ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinə başlayıb. Hazırda işğal dövründə dağıdılmış bütün infrastruktur yenidən bərpa olunur. "Yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda yeni şəhərlər və kəndlər inşa edilir. Artıq bu ildən etibarən keçmiş məcburi köçkünlərin öz evlərinə geri qaytarılmasına başlanılıb.

Həyata keçirilən işlərə ən böyük maneə işğaldan azad edilmiş torpaqlarda Ermənistan tərəfindən basdırılmış çoxsaylı minalardır. 10 noyabr 2020-ci il tarixindən etibarən mina partlayışları nəticəsində 270-ə yaxın azərbaycanlı həlak olub və yaralanıb. Ermənistan işğaldan azad edilmiş bütün ərazilərin tam və dəqiq mina xəritələrini Azərbaycana təqdim etməkdən hələ də boyun qaçırır, əksinə, ərazilərimizdə mina basdırmaqda davam edir.

İşğal qurbanı olmasına baxmayaraq, məhz Azərbaycan regionda uzunmüddətli sülh və sabitliyin təmin olunması üçün səylər göstərir. Azərbaycan Ermənistana münasibətlərin normallaşdırılmasını və beynəlxalq hüququn 5 prinsipi əsasında sülh sazişinin imzalanmasını təklif edib. Təəssüf ki, Ermənistan hələ də öz destruktiv addımları və ziddiyyətli bəyanatları ilə bu prosesə əngəl törədir və üzərinə götürdüyü öhdəliklərə əməl etmir. Ermənistan indiyə kimi öz qanunsuz silahlı birləşmələrini Azərbaycan ərazilərindən tam çıxarmayıb və Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin etməkdən imtina edir. Halbuki "Şərq-Qərb" nəqliyyat dəhlizinin mühüm hissəsinə çevriləcək Zəngəzur dəhlizi bütün regiona fayda gətirəcəkdir.

Ermənistan bu cür davranışlardan çəkinməli və sülh sazişinin imzalanması üçün real addımlar atmalıdır. Bu, regionda uzunmüddətli sülh və sabitliyin təmin olunmasının yeganə yoludur.

Çıxışının sonunda Milli Məclisin Sədri bir daha Azərbaycan-Türkmənistan əlaqələrinə toxunaraq bildirib ki,ölkələrimiz arasında mövcud olan dostluq və qardaşlıq münasibətləri, gündən-günə genişlənən əməkdaşlıq əlaqələri bizləri olduqca məmnun edir. Bizlər də parlament üzvləri olaraq bu əlaqələrin bundan sonra da möhkəmləndirilməsi üçün səylərimizi artırmalı, həmrəyliyimizi və birgə fəaliyyətimizi daha da gücləndirməliyik. Çünki bu, xalqlarımızın iradəsindən qaynaqlanır və ölkələrimizin mənafelərinə xidmət edir.

Çıxışına yekun vuran Azərbaycan parlamentinin rəhbəri Türkmənistana sülh, firavanlıq və tərəqqi arzularını çatdırıb.

***"Azərbaycan"***

# Xarici ölkələrin ekspertləri Füzulidə

Bu gün UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Dövlət Turizm Agentliyi, ICOMOS Azərbaycan Milli Komitəsi, ICOM Azərbaycan Milli Komitəsi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə "Mədəni sərvətlərin qorunmasında UNESCO konvensiyalarının rolu və onların tətbiqinin təkmilləşdirilməsinin aspektləri" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcək.






AZƏRTAC xəbər verir ki, beynəlxalq konfransın iştirakçıları - ICOMOS-un (UNESCO yanında Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Komissiyası) vitse-prezidenti Zeynəb Gül Ünal, təşkilatın Suriya və İraqda mədəni irsin qorunması üzrə işçi qrupunun sədri Samir Abdulac və ICOMOS Pakistan Milli Komitəsinin prezidenti Fauzia Husain Qureshi, ICOM-ICME prezidenti Ralf Çeplak Mençin olmaqla, ümumilikdə 10 xarici ölkədən 20-yə yaxın ekspert Ermənistanın işğalından azad edilmiş Füzuli rayonunda olublar.

Nümayəndə heyətini Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin böyük məsləhətçisi Araz İmanov, UNESCO üzrə Milli Komissiyanın, ICOMOS Azərbaycan Milli Komitəsinin, ICOM Azərbaycan Milli Komitəsinin, ADA Universitetinin nümayəndələri müşayiət ediblər.

Əvvəlcə Qaraxanbəyli kəndinə gələn qonaqlara məlumat verilib ki, erməni vandalizmi nəticəsində kənd və buradakı məzarlıq məhv edilib. Erməni barbarlığına şahid olan qonaqlar həmçinin Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, bu istiqamətdə aparılan təmizləmə işləri barədə də məlumatlandırılıblar.

Qonaqlar sonra Merdinli kəndində erməni barbarlığı ilə tanış olublar. Bildirilib ki, erməni vandalları işğal etdikləri digər şəhər və kəndlər kimi, Merdinli kəndini də talayıb, yer üzündən siliblər. Bütün evlər, sosial obyektlər dağıdılıb, təsərrüfatlar məhv edilib. Düşmən Merdinli kəndindəki məsciddən mal-qara tövləsi kimi istifadə etməklə azərbaycanlılara qarşı öz nifrətlərini nümayiş etdiriblər. Kənd qəbiristanlığı da erməni vandalizminə məruz qalıb - məzarlar dağıdılıb, məzar daşları uçurulub. Sonra Füzuli şəhərinin mərkəzinə gələn qonaqlara ermənilərin işğal zamanı burada törətdikləri vəhşiliklər barədə məlumat verilib. Bildirilib ki, Füzuli şəhəri və rayonun kəndləri tamamilə viran edilib, yaşayış binaları ilə bərabər, tarixi-mədəni abidələr də dağıntılara məruz qalıb. Rayonun təbiəti - ağaclar və yaşıllıqlar, su mənbələri, o cümlədən kəhriz və bulaqlar məhv edilib.

Sonda Füzuli Beynəlxalq Hava Limanına gələn nümayəndə heyətinə məlumat verilib ki, 44 günlük Zəfər yürüşü zamanı azad edilən torpaqlarda Azərbaycan dövləti tərəfindən irimiqyaslı layihələr həyata keçirilir, tikinti-quruculuq işləri aparılır. Belə layihələrdən biri də Füzuli, Zəngilan və Laçın hava limanlarının inşasıdır. Artıq Füzuli və Zəngilan beynəlxalq hava limanlarının inşası başa çatıb. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanları xarici ölkələrdən təyyarələr qəbul edir.

## Azərbaycanın özü qədər əbədi

# Müstəqil Azərbaycan Heydər Əliyevin əbədiyaşar ideyaları və zəngin siyasi irsi əsasında tarixi nailiyyətlərə imza atır

Müsahibimiz Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovdur



*- Tahir müəllim, 12 dekabr Ümummilli Lider Heydər Əliyevin anım günüdür. Azərbaycan xalqı Ulu Öndərin əziz xatirəsini ehtiramla yad edir, onun misilsiz xidmətlərini daim yüksək qiymətləndirir. Müdrik dövlət xadiminin ölkəmizə rəhbərlik etdiyi müxtəlif dövrlərdə Azərbaycan naminə gördüyü işləri necə xarakterizə edərdiniz?*

- Müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin əbədiyyətə qovuşmasından 19 il ötsə də, çoxəsrlik tarixinin ən parlaq dövrünü yaşayan qədirbilən Azərbaycan xalqı onun misilsiz xidmətlərini hər an yüksək qiymətləndirir, Ulu Öndərin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edir. Çünki bu gün qüdrətli və qalib Azərbaycan Heydər Əliyevin əbədiyaşar ideyaları, zəngin siyasi irsi əsasında tərəqqi və zəfər yolunda əmin addımlarla irəliləyir, tarixi nailiyyətlərə imza atır.

Heydər Əliyev istər SSRİ dönəmində, istərsə də müstəqillik illərində respublikamıza rəhbərliyi zamanı Azərbaycanın milli maraqlarını daim uca tutub, Vətən naminə fədakarcasına, əzmlə və qətiyyətlə çalışıb.

1969-cu ilin 14 iyulunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyev Moskvanın yaratdığı maneə və məhdudiyyətlərə baxmayaraq, respublikamızın perspektiv inkişafı üçün möhkəm təməllərin yaradılmasına müvəffəq olub, uzaqgörən siyasəti ilə Azərbaycanın gələcək müstəqilliyinin bünövrəsini inşa edib. 1982-ci ilin dekabrında SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi də Azərbaycanın mənafelərini qətiyyətlə qoruyub, xalqımızın rifahı və firavanlığı, respublikamızın inkişafı üçün əhəmiyyətli addımlar atıb, tarixi xidmətlər göstərib.

Müdrik dövlət xadiminin fəaliyyətinin Naxçıvan dövrü də müasir dövlətçilik tariximizin ən mühüm səhifələrindən biri kimi əlamətdar hadisələrlə zəngindir. Heydər Əliyevin muxtar respublikanın Ali Sovetinin sədri olduğu zaman atdığı addımlar müstəqillik ideyasının mənimsənilməsində, milli həmrəyliyin təmin edilməsində, milli-mənəvi dəyərlərin və dövlətçilik ənənələrinin qorunmasında müstəsna rol oynayıb. Xatırlatmaq yerinə düşər ki, Ulu Öndərin təşəbbüsü ilə ilk dəfə olaraq Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağımız qaldırılıb, Naxçıvan MSSR adından "Sovet Sosialist" ifadəsi çıxarılıb, 20 Yanvar faciəsinə siyasi qiymət verilib, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılmasına dair keçirilən referendumda iştirak etməməsi, 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə tarixi qərarlar qəbul olunub, "Ümid" körpüsü vasitəsilə Türkiyə ilə münasibətlərin yeni dönəminin əsası qoyulub. Bütün bu milli məzmunlu, müstəsna ictimai-siyasi, ideoloji və tarixi əhəmiyyətə malik addımlar keçmişə hörmət və ehtiram, gələcəyə aydın baxış və milli hədəflərə yönəlik sistemli fəaliyyət nümunəsi kimi böyük önəm daşıyıb.

Həmin dövrdə, 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması isə nəinki müstəqillik, hətta müasir dövlətçilik tariximizin dönüş nöqtəsi oldu. İnkaredilməz həqiqətdir ki, ölkəmizin böhran və tənəzzüldən xilas olaraq sabitlik və inkişaf yoluna qədəm qoyması güclü lider və dahi şəxsiyyət Heydər Əliyevin ətrafında cəmiyyətimizin ən öncül zümrəsinin birləşməsi ilə başladı. Xalqın dəstəyi, Heydər Əliyevin qətiyyətli mövqeyi, siyasi iradəsi və uğurlu fəaliyyəti nəticəsində Yeni Azərbaycan Partiyası qısa müddət ərzində ümumxalq partiyasına və dövlətin siyasi sütununa çevrildi. Yarandığı gündən bir neçə ay sonra Yeni Azərbaycan Partiyasının xalqın etimadı ilə hakimiyyətə gəlməsi dünya siyasi tarixində nadir hadisələrdən biri, Heydər Əliyev şəxsiyyətinə ümumxalq inamının bariz təzahürü idi.

Bununla da siyasi tariximizin çətin, mürəkkəb, keşməkeşli və qeyri-müəyyən dövründə - ölkədə vəziyyətin durmadan ağırlaşdığı və kəskinləşdiyi, inamın azaldığı, ümidlərin tükəndiyi bir vaxtda Ümummilli Lider xalqımız qarşısında ən böyük xidmətlərindən birini - xilaskarlıq missiyasını yerinə yetirdi. Heydər Əliyevin qayıdışı Azərbaycanın qurtuluşunu təmin etdi. Ümummilli Liderin zəngin dövlətçilik təcrübəsi və məqsədyönlü siyasəti sayəsində xaosun, vətəndaş qarşıdurmasının qarşısı alındı və sabitlik təmin edildi. Həmin il oktyabrın 3-də keçirilən prezident seçkilərində xalqımızın iradəsi əsasında Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyevin milli maraqlara, dövrün tələblərinə və ictimai-siyasi reallıqlara uyğun qətiyyətli siyasəti ölkəmizin inkişaf yoluna qədəm qoymasını təmin etdi. Vətəndaş həmrəyliyinin, milli birliyin təmin edilməsi, siyasi-hüquqi islahatlar, o cümlədən müstəqillik dövründə ilk parlament seçkilərinin keçirilməsi, müstəqillik dönəminin ilk Konstitusiyasının hazırlanması və ümumxalq səsverməsi - referendum əsasında qəbul edilməsi, kütləvi informasiya vasitələri üzərində senzuranın aradan qaldırılması, ordu quruculuğu, milli maraqlara əsaslanan xarici siyasət nəticəsində ölkəmizin dostlarının və müttəfiqlərinin sayının artması, Azərbaycan həqiqətlərinin, o cümlədən Qarabağ məsələsində ölkəmizin haqlı mövqeyinin dünya birliyinə çatdırılması Azərbaycanın demokratik inkişaf yolunda əmin addımlarla irəliləməsinə və mütərəqqi, sivil dəyərlər əsasında dünya birliyinə inteqrasiyasına mühüm töhfə oldu. Beynəlxalq ictimai rəydə Azərbaycanın müstəqil və milli maraqlara əsaslanan siyasət həyata keçirən, güclü və xarizmatik lideri olan, ümummilli məsələlərdə prinsipial mövqedən çıxış edən qüdrətli dövlət imici formalaşdı.

Bütövlükdə həm sovetlər birliyi dönəmində, həm də müstəqilliyin bərpasından sonra Ulu Öndərin rəhbərliyi ilə görülən işlər yeni Azərbaycanın parlaq gələcəyini təmin etmişdir. Ona görə də əminliklə söyləyirik ki, Azərbaycanın müstəqil dövlət kimi inkişafı, tarixi uğurlar qazanması Ümummilli Liderin adı, siyasəti və ideyaları ilə bağlıdır. Heydər Əliyev yolu çoxəsrlik tarixə əsaslanan milli dövlətçiliyimizin və dövlət müstəqilliyimizin inkişaf salnaməsidir.

*- Siyasi analitiklər, tədqiqatçılar vurğulayırlar ki, Heydər Əliyevin xalqımız qarşısında və müasir dövlətçilik tariximizdə misilsiz xidmətlərindən biri siyasi varisliyi təmin etməsidir. Bu barədə nə deyə bilərsiniz?*

- Ulu Öndər fəaliyyəti boyunca tarixi və siyasi ənənələrə, milli-mənəvi dəyərlərə xüsusi diqqət yetirməklə yanaşı, yenilikçi, mütərəqqi baxışlara əsaslanan və xalqın xoşbəxt gələcəyinə hesablanmış çox mühüm təşəbbüslər irəli sürüb, vacib addımlar atıb. Siyasi varisliyin təmin olunması isə Azərbaycanın müasir dövlətçilik tarixində müstəsna yerə və rola malik taleyüklü hadisədir. Ona görə də siyasətçilər, siyasi təhlilçilər, tədqiqatçılar və sadə vətəndaşlar bu reallığı Ümummilli Liderin xalqımız qarşısında ən böyük tarixi xidmətlərindən biri kimi dəyərləndirirlər.

Yaxşı xatırlayırıq, Ulu Öndər Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına ünvanladığı tarixi müraciətdə "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyə qətiyyətlə vurğulamışdı. Daim öz liderinə - Heydər Əliyev şəxsiyyətinə güvənərək dövlətin və dövlətçiliyin keşiyində mətinliklə dayanan, qətiyyətli iradə nümayiş etdirən Azərbaycan xalqı növbəti dəfə Ümummilli Liderin çağırışını ən yüksək səviyyədə dəyərləndirərək 2003-cü ildə bir daha Heydər Əliyev siyasətinə "HƏ" dedi və onun ən yaxın silahdaşı olan cənab İlham Əliyevə etimad göstərdi.

Tarix Ümummilli Liderin inamının və xalqın etimadının özünü doğrultmasına şahidlik etdi. Zamanın Ulu Öndərə başa çatdırmağa imkan vermədiyi işləri onun siyasi varisi cənab İlham Əliyev müvəffəqiyyətlə yerinə yetirdi, Heydər Əliyevin arzuları reallığa çevrildi. Cənab İlham Əliyevin 2003-cü ildə Prezident seçilməsindən sonra ölkə həyatında keyfiyyətcə yeni mərhələ başlandı, yeni tarixi nailiyyətlərə imza atıldı, xalq-iqtidar birliyi daha da möhkəmləndi, Azərbaycan regionda aparıcı güc mərkəzinə və lider dövlətə, ən əsası isə qalib ölkəyə çevrildi.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 19 ildə cərəyan edən proseslər, əldə olunan nailiyyətlər və bütövlükdə mövcud reallıqlar artıq təsdiqləyir ki, Heydər Əliyev yolu Azərbaycanın möhtəşəm nailiyyətlərinin əsasını təşkil edir. Ulu Öndərin siyasətini uğurla, uzaqgörənliklə davam etdirən Prezident İlham Əliyev Azərbaycanın iqtisadi potensialının, siyasi nüfuzunun artmasını, ikitərəfli və çoxşaxəli münasibətlərinin inkişafını, beynəlxalq mövqeyinin möhkəmlənməsini, xalq-iqtidar birliyinin, milli həmrəyliyin güclənməsini, mürəkkəb şərtlər və şərait fonunda, sərt geosiyasi mübarizə və rəqabətin aparıldığı vəziyyətdə milli hədəflərin reallaşmasını təmin etdi.

Ümummilli Liderin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda inamla addımlayan müstəqil Azərbaycan bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni strateji nailiyyətlərə müvəffəq olur, milli dövlətçilik tariximizin növbəti şərəfli və qürurlu səhifələri yazılır. Tolerantlıq nümunəsi və multikulturalizm ünvanı, beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi səciyyələndirilən Azərbaycanın inkişaf yolu bir çox ölkələr üçün örnəkdir. Təsadüfi deyil ki, dünyanın nüfuzlu ekspertləri və mötəbər strateji tədqiqat mərkəzləri, aparıcı reytinq institutları Azərbaycanın inkişaf modelini mütərəqqi nümunə kimi dəyərləndirir və ölkəmizin gələcəyinə dair pozitiv rəy və proqnozlar ifadə edirlər.

Tarixi əhəmiyyətə malik ən mühüm məqam isə budur ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətənin bütövlüyünü, tarixi ədaləti bərpa etmək uğrunda ləyaqətli və qətiyyətli mübarizə aparan Azərbaycan xalqı iradəsini ortaya qoyaraq haqq savaşında ali məqsədinə nail oldu, 44 günlük Vətən müharibəsində qazanılan, son 200 illik tariximizdə bənzəri olmayan böyük Qələbə sayəsində torpaqlarımız işğaldan azad, ərazi bütövlüyümüz və milli ləyaqətimiz isə bərpa edildi. Beləliklə, zaman torpaqlarımızın uzunmüddətli hərbi-siyasi əsarətdən xilasına nail olan Azərbaycanın Liderinin Vətənə, xalqa və dövlətə sədaqət andını, ata vəsiyyətini şərəflə yerinə yetirməsinə şahidlik etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev bir daha sübuta yetirdi ki, onun sözü imzası qədər dəyərlidir.

Bu gün işğaldan azad edilmiş, üçrəngli bayrağımızın qürurla və əzəmətlə dalğalandığı ərazilərdə nəhəng bərpa-quruculuq işləri görülür. Müzəffər Ali Baş Komandan İlham Əliyev ilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həmin torpaqlara hər bir səfəri təntənəli zəfər yürüşünün davam etdiyini göstərir, qalib Azərbaycan Böyük qayıdışı, dayanıqlı və layiqli məskunlaşmanı yüksək səviyyədə təmin etmək iqtidarında olduğunu bütün dünyaya nümayiş etdirir.

Beləliklə, tərəqqi və Zəfər yolu Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanı yeni hədəflərə, yeni zirvələrə aparır. Müstəqil Azərbaycan Heydər Əliyev yolunun Müzəffər davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə strateji hədəflərinə doğru inamla irəliləyir. Bütün bu nailiyyətlər və qürurverici reallıqlar Heydər Əliyev ideyaları və siyasətinin təntənəsi, Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyətinin nəticəsi, dövlətimizin qüdrətinin ifadəsidir.

*- Tahir müəllim, Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyalarından və zəngin dövlətçilik irsindən bəhs etdiniz. Heydər Əliyev irsi Azərbaycan xalqının milli-mənəvi sərvəti, dövlətçiliyimizin siyasi-ideoloji sütunudur. "Heydər Əliyev İli" çərçivəsində həyata keçiriləcək tədbirlərin Ümummilli Liderin siyasi irsinin öyrənilməsi baxımından əhəmiyyəti nədən ibarətdir?*

- Heydər Əliyev öz zəngin dövlətçilik təcrübəsi və bənzərsiz liderlik keyfiyyətləri ilə Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə - müstəqilliyi daimi, dönməz və əbədi etməyə müvəffəq olmuş, xalqımıza qürur və iftixar mənbəyi olan çoxsaylı tarixi nailiyyətlər qazandırmış, yeni, müasir və müstəqil Azərbaycan reallığını yaratmış müdrik dövlət xadimidir.

Prezident İlham Əliyevin 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncamında qeyd edildiyi kimi, "müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir". Bəli, Heydər Əliyev fenomeni zaman və məkan anlayışlarının fövqündədir. Yəni onun dövlətçilik irsi və parlaq ideyaları hər zaman - bütün dövrlər üçün aktualdır. Heydər Əliyev ideyaları həm xalqımızın mənəvi-siyasi sərvəti, həm də Azərbaycan dövlətinin inkişafını, xalqımızın xoşbəxt gələcəyini təmin edən dəyərlər sistemi kimi müstəsna əhəmiyyətə malikdir. Ulu Öndərin ideyaları eyni zamanda milli həmrəyliyi təmin edən, dünya azərbaycanlılarını vahid məqsəd ətrafında - Azərbaycan naminə birləşdirən məfkurədir. Ümummilli Liderin siyasi irsi dövlətçilik konsepsiyasıdır. Ona görə də ölkəmizdə və respublikamızın hüdudlarından kənarda Heydər Əliyev irsinin öyrənilməsi ilə əlaqədar ardıcıl, məqsədyönlü və sistemli fəaliyyət həyata keçirilir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, Birinci vitse-prezident, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ümummilli Liderimizin zəngin irsinin araşdırılmasında və gənc nəslin bu irsin öyrənilməsinə təşviq olunmasında vacib rol oynayır. Yeni Azərbaycan Partiyası da Heydər Əliyev irsinin və ideyalarının təbliği istiqamətində sistemli fəaliyyət göstərir. Qeyd edim ki, YAP-ın proqramında Heydər Əliyev irsinin təbliği və təşviqi partiyanın əsas hədəflərindən biri kimi göstərilib, onun həyatının Vətənə, xalqa və dövlətə xidmət nümunəsi olduğu qeyd edilib.

"Heydər Əliyev İli" ilə əlaqədar təsdiqlənən tədbirlər planı olduqca zəngin, rəngarəng və çoxşaxəlidir. Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı da 2023-cü ildə görüləcək işləri və ümumi fəaliyyət istiqamətlərini müəyyən edən tədbirlər planı hazırlayıb və sənəd partiyanın İdarə Heyətinin iclasında müzakirəyə çıxarılacaq. Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı olaraq Ümummilli Liderin 100 illiyinə həsr olunmuş müsabiqələr, aksiyalar, görüşlər, elmi-praktik konfranslar keçirməyi və bir sıra digər tədbirləri reallaşdırmağı nəzərdə tuturuq.

Bütövlükdə, "Heydər Əliyev İli" çərçivəsində respublika səviyyəsində və ölkəmizin hüdudlarından kənarda keçiriləcək tədbirlər Heydər Əliyev şəxsiyyətinin dövlətçilik tariximizdə müstəsna yerinin və rolunun daha dərindən tədqiq olunması, onun ideya-siyasi xəttinin, zəngin dövlətçilik irsinin və əbədiyaşar ideyalarının yeni nəslə aşılanması, gənc nəslin milli-mənəvi dəyərlər əsasında, vətənpərvərlik və dövlətə sədaqət ruhunda yetişməsi və bütövlükdə müasir müstəqil Azərbaycanın inkişaf yolunun hərtərəfli öyrənilməsi baxımından müstəsna əhəmiyyətə malikdir.

***Müsahibəni apardı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Mədəni irsin qorunmasına dair beynəlxalq konfransın nümayəndə heyəti Ağdamda erməni barbarlığının şahidi olub






Dekabrın 8-də Bakıda keçiriləcək "Mədəni sərvətlərin qorunmasında UNESCO konvensiyalarının rolu və onların tətbiqinin təkmilləşdirilməsinin aspektləri" mövzusunda beynəlxalq elmi konfransda iştirak edəcək qonaqlar Ermənistanın işğalından azad edilmiş Ağdam şəhərində olublar.

AZƏRTAC xəbər verir ki, səfərdə ICOMOS-un (UNESCO yanında Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Komissiyası) vitse-prezidenti Zeynəb Gül Ünal, təşkilatın Suriya və İraqda mədəni irsin qorunması üzrə işçi qrupunun sədri Samir Abdulac və ICOMOS Pakistan Milli Komitəsinin prezidenti Fauzia Husain Qureshi, ICOM-ICME prezidenti Ralf Çeplak Mençin olmaqla, ümumilikdə 10 xarici ölkədən 20-yə yaxın xarici ekspert iştirak edib.

Nümayəndə heyətini Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin böyük məsləhətçisi Araz İmanov, UNESCO üzrə Milli Komissiyanın, ICOMOS Azərbaycan Milli Komitəsinin, ICOM Azərbaycan Milli Komitəsinin, ADA Universitetinin nümayəndələri müşayiət ediblər.

Səfər çərçivəsində Ağdamda Ermənistan tərəfindən işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini, mədəni və tarixi abidələrə, o cümlədən İmarət kompleksinə, Ağdam Cümə məscidinə, Dram teatrının binasının qalıqlarına və yerləyeksan edilmiş Şəhidlər xiyabanına baxış keçirilib. Qonaqlara Ağdamın tarixi, indiki vəziyyəti, burada törədilən erməni faşizmi barədə ətraflı məlumat verilib. Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi-mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Ağdamda erməni vandalizmi ilə tanış olan nümayəndə heyəti Füzuli rayonuna yola düşüb.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev dekabrın 7-də Şirvan şəhərində vətəndaşları qəbul edib.

Vətəndaş qəbulunda Hacıqabul, Salyan, Neftçala rayonlarının və Şirvan şəhərinin sakinləri iştirak ediblər.

Vətəndaşların nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərinə baxılıb.

Nazir Rəşad Nəbiyev müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal həllini tapıb. Nazirliyin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlərin isə qeydiyyata alınaraq müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

❖ ❖ ❖

Dekabrın 7-də ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev İmişli rayonunda yerləşən Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Görüş zamanı ətraf mühitin mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, mineral xammal, işlə təminolunma və digər məsələlərlə bağlı vətəndaşların müraciətləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərlərinin isə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə nazirliyin məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

# Azərbaycanın özü qədər əbədi

**Hər il anım günündə Ulu Öndər Heydər Əliyevin Azərbaycan naminə gördüyü tarixi xidmətlər xatırlanır, təcrübəsinə bir daha nəzər yetirilir və gələcəyə işıq tutulur. Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində miqyasına görə böyük və strateji, məzmun və mahiyyətinə görə dərin olan fəaliyyət sahələrindən biri Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın vəziyyəti və hüquqları məsələsi olub.**
**Son vaxtlar qonşu İran İslam Respublikası adlanan ölkədə baş verən proseslər vətənimizin cənubunda yaşayan soydaşlarımızın hüquqlarının qorunması və təhlükəsizliyi ilə bağlı məsələləri yenidən aktual edib.**
**Bəs Heydər Əliyev 1969-1987-ci illərdə ümumi sovet siyasəti çərçivəsində Cənubi Azərbaycanda yaşayan soydaşlarımıza münasibətdə hansı xətti yürüdüb?**



# HEYDƏR ƏLİYEV və CƏNUBİ AZƏRBAYCAN

## Tarixə qısa bir baxış

XIX əsrdə çar Rusiyası və Qacarlar İranı arasında aparılan işğalçı müharibələr nəticəsində 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay sülh müqavilələri ilə Azərbaycanın zorla iki yerə bölüşdürülməsindən sonra keçən bütün tarixi dövr ərzində milli ruhlu adamları, qabaqcıl ziyalıları soydaşlarımızın hüquqlarının qorunması, vətənin birləşdirilməsi, bütövləşdirilməsi daim düşündürüb. Qeyd etmək lazımdır ki, bölüşdürülməyə qədər Bütöv Azərbaycanın ərazisi təxminən 410 min kv. km. təşkil edirdi. Bölüşdürüldükdən sonra Azərbaycan əraziləri cənubda 280 min kv. km., şimalda 130 min kv. km. idi. "Cənubi Azərbaycan" adı altında İran ərazisində müasir dövrdə aşağıdakı regionlar vardır: Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Ərdəbil, Zəngan, Həmədan, Qəzvin əyalətləri, Savə mahalı, Astara şəhristanı (mahalı). Təxminən 40 mln. azərbaycanlı İran əhalisinin 50%-ə qədərini təşkil edir.

Tarixən həm də bir türk ölkəsi olan İranı XX əsrin 20-ci illərin ortalarınadək azərbaycanlı sülalələr idarə edib. Bu ölkənin adını türklər verib. Müxtəlif dövrlərdə Səttarxan Sərdar Milli, Bağırxan Salar Milli, Şeyx Məhəmməd Xiyabani və Seyid Cəfər Pişəvərinin rəhbərliyi altında baş verən hərəkatlar eyni zamanda bütöv Azərbaycan xalqının zəngin tarixinin mühüm hadisələridir. İkinci Dünya müharibəsi illərində sovet ordu hissələri tərkibində azərbaycanlıların Cənubi Azərbaycana getməsi, soydaşlarımızın arasında hərbi, siyasi, ideoloji və mədəni tədbirlər həyata keçirmələri də Azərbaycan tarixinin ayrılmaz bir hissəsidir. Şimaldan gedənlərin cənubdakı fəaliyyətləri təkcə ümumi sovet xarici siyasətinin yerinə yetirilməsi deyil, Vahid Azərbaycan uğrunda gərgin səylərin və sevginin nümunəsi idi. Müharibə illərində Cənubi Azərbaycanda çalışmış tanınmış ictimai-siyasi, dövlət və ədəbiyyat xadimlərindən Əziz Əliyev, Mirzə İbrahimov, Süleyman Rüstəm, Rəsul Rza və başqalarının Pişəvəri hərəkatının böyük dövlətlərin siyasəti ucbatından uğursuzluğa uğramasından sonra geri dönərək uzun illər boyu yüksək dövlət və ictimai vəzifələrdə işləməsi Azərbaycanın şimalında cənub mövzusunun müxtəlif orqanlarda çalışanların şüurunda və fəaliyyətində müəyyən yer tutmasına təsir edib.

Hələ 20-ci illərdə tələbə ikən Cənubi Azərbaycanda olan Əziz Əliyev buranın tarixini, coğrafiyasını və əhalisinin vəziyyətini dərindən bilirdi. İkinci Dünya müharibəsinin gedişində Cənubi Azərbaycanda sovet ordu hissələri tərkibində siyasi təbliğatçılar qrupunun rəhbəri işləyən Əziz Əliyev probleme azərbaycanlılar içərisində ən yaxşı və incəliyinə qədər bələd olan dövlət xadimi idi. Kommunist və qeyri-kommunist olmasından asılı olmayaraq, bütün azərbaycanlıların qəlbində Azərbaycanın cənubunu və şimalını Azərbaycana birləşdirmək istəyi həmişə olub.

Bununla yanaşı, müharibə dövründə xüsusi xidmət orqanlarının əməkdaşları kimi cənubda işləyən, məhdud dairədən kənarda tanınmayan bəzi gənclər də sonralar Azərbaycanda vəzifələr tutaraq müharibə illərində gördükləri işi yeni şəraitə uyğun olaraq həyata keçirməyə çalışıblar.

## Şah dövründə azərbaycanlıların vəziyyəti və Heydər Əliyevin baxışı

İkinci Dünya müharibəsi illərində gənc yaşlarından xüsusi xidmət orqanlarında işə başlayan Heydər Əliyev Cənubi Azərbaycanda da fəaliyyət göstərərək azərbaycanlıların hüquqlarının qorunmasında, siyasi və ictimai təşkilatlarının yaradılmasında, müstəqillik, birlik ideyalarının formalaşmasında, şimala birləşmək istəklərinin gücləndirilməsində mühüm rol oynamışdı.



ПОСОЛЬСТВО СССР В ИРАНЕ

К ВОПРОСУ О ПОЛОЖЕНИИ АЗЕРБАЙДЖАНЦЕВ В ИРАНЕ (Информация)





Первый секретарь Посольства СССР в Иране подпись (В.Баранов)

Копия верна:



Г.Ј.ДАНИШЈАН.

O, Təbrizdə işlərkən cənublu gənclərin Seyid Cəfər Pişəvəri hərəkatında iştirak etmələri, Azərbaycan Demokrat Partiyasına üzv olmaları yolunda fəal təbliğat aparmış və bu partiyada çalışmışdı. Heydər Əliyev Cənubi Azərbaycan problemini həm nəzəri-tarixi, həm də praktiki baxımdan dərindən bilirdi.

Sovet dövründə Azərbaycan müstəqil olmadığı üçün xarici siyasət yürüdə bilməsə də, Heydər Əliyev ümumi sovet xarici siyasəti çərçivəsində Cənubi Azərbaycan məsələsini diqqətdə saxlayırdı. Heydər Əliyevin bu məsələyə münasibəti bir neçə istiqaməti əhatə edirdi: Cənubi Azərbaycandan olan ziyalılara xüsusi qayğı göstərir; cənub mövzusunun unutdurulmamasına çalışır; elmi araşdırmaların aparılmasını təşviq edir, alim, yazıçı və şairləri cənub mövzusundan yazmağa çağırır, böyük ustalıqla həmin ideyanın yayılmasına kömək edir; Cənubi Azərbaycandan olan şair və yazıçıların məişət şəraitinin yaxşılaşdırılmasından ötrü qərarlar qəbul edir, onları mənzillə təmin edir; İrana və Cənubi Azərbaycan şəhərlərindəki kitabxanalara Bakıdan nəşrlər göndərilməsini artırır; cənublu gənclərin Azərbaycan ali məktəblərində təhsil almalarına dair qərarlar qəbul edirdi və s. Heydər Əliyev hakimiyyətə gələn kimi ilk növbədə İrana Azərbaycan ədəbiyyatının göndərilməsi işi genişləndirildi. 1970-ci illərin əvvəllərindən etibarən İranda Azərbaycan kitabına olan ehtiyac xeyli artmışdı. Ona görə də Azərkitab İrana 5 min nüsxə kitab göndərmək barədə İran naşirləri ilə müqavilə imzaladı. Təbriz, Urmiya, Zəngan və başqa şəhərlərdəki ali məktəb kitabxanalarına çoxlu Azərbaycan kitabı göndərildi. Bunların arasında Azərbaycan ədəbiyyatı, tarixi və mədəniyyətinə, digər elm sahələrinə dair kitablar üstünlük təşkil edirdi. Kitab göndərilməsi işində Azərbaycan kitabxanaları da fəal iştirak edirdilər. 1971-1973-cü illərdə Azərbaycan EA kitabxanası və M. F. Axundov adına kitabxana İrana 900-dən çox kitab və jurnal göndərmişdi.

Heydər Əliyev belə hesab edirdi ki, SSRİ-nin İranla normal münasibətlərinin qurulması, inkişaf etdirilməsi, rəsmi nümayəndə heyətlərinin və ictimaiyyət xadimlərinin səfərləri cənubi azərbaycanlıların öz problemlərini başa düşmələrinə, həlli yolları barədə düşünmələrinə təsir göstərər. Onun hakimiyyəti illərində İrandan gələn bütün qonaqlara, xüsusən azərbaycanlılara böyük ehtiram göstərilirdi. Məsələn, Azərbaycan KP MK bürosunun 1970-ci il 4 dekabr tarixli iclasında İran şahının həyat yoldaşı Fərəh Pəhləvi və onun anası Fəridə Dibanın Azərbaycana səfəri haqqında məsələ müzakirə edildi. Müzakirə nəticəsində beş maddədən ibarət qərar qəbul olundu. Qərarda eyni zamanda yazılırdı ki, təsdiq edilmiş proqram qonaqların istəyinə uyğun olaraq dəyişdirilə bilər. Dekabr ayının 9-11-də keçirilən səfərdə Fərəh xanımı və anasını 7 nəfər rəsmi, 5 nəfər şəxs isə qeyri-rəsmi şəkildə müşayiət edirdi. İranın SSRİ-dəki səfiri və həyat yoldaşı da onu müşayiət edənlərin arasında idi. Qonaqlara Azərbaycanda böyük hörmət və ehtiram göstərildi. Onlar Azərbaycan Dövlət Opera və Balet Teatrında, Bakı şəhərinin tarixi yerlərində, Azərbaycan Dövlət Konservatoriyasında, Azərbaycan tarixi muzeyində, C. Qaryağdının emalatxanasında oldular. Səfər qonaqlarda Azərbaycan haqqında dolğun təsəvvürün yaradılmasında mühüm rol oynadı.

Bu dövrdə sovet rəhbərliyi və Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev ümumi siyasi, strateji və hərbi məqsədləri naminə Cənubi Azərbaycanda yaşayan azərbaycanlılar barədə dəqiq informasiyalar alırdı. Məsələn, SSRİ-nin İrandakı səfirliyinin birinci katibi V. Baranov 1978-ci il 30 iyul tarixli "İranda azərbaycanlıların vəziyyəti haqqında məsələyə dair (informasiya)" adlı iki nüsxədən ibarət olan məlumatında yazırdı ki, azərbaycanlılar İranın türkdilli xalqları arasında ən çoxsaylıdır və farslardan sonra ikinci yeri tuturlar. Sənəddən məlum olurdu ki, 1976-cı ildə əhalinin siyahıyaalınmasına görə, azərbaycanlılar Şərqi Azərbaycanda 3,2 mln., Qərbi Azərbaycanda 1,4 mln., Zənganda 0,6 mln. nəfər yaşayırdılar. Həmədan, Qəzvin və b. şəhərlərdə də azərbaycanlılar çox idi. Məlumatdan aydın olurdu ki, İranda yaşayan 33,6 mln. əhalinin 7 mln. nəfərini azərbaycanlılar təşkil edirdi. Bütün ölkə miqyasında əhalinin ümumi artımı 2,7% olsa da, bu, İran Azərbaycanında 3,1% təşkil edirdi. Məlumatda yazılırdı ki, yaxın illərdə azərbaycanlıların sayı 8 mln. nəfərə çatmalıdır. Qeyd etmək lazımdır ki, bunlar rəsmi statistik məlumatlar idi. Rəsmi statistika isə azərbaycanlıların sayını həmişə az göstərirdi. Azərbaycanlı əhalinin 65%-i kənd yerlərində yaşayır, əsasən, maldarlıq, üzümçülük, əkinçilik və bağçılıqla məşğul olurdu. Şəhərlərdə yaşayan azərbaycanlıların 10%-ə qədəri dövlət qulluğunda və şirkətlərdə çalışırdılar. Böyük bizneslə məşğul olan azərbaycanlılar da var idi. Təbrizdən çıxan bir neçə milyonçu ailə Tehran bazarına nəzarət edirdi. İranın sənaye-ticarət burjuaziyasını, əsasən, azərbaycanlılar təşkil edirdilər. İranın din xadimləri arasında çoxlu azərbaycanlı var idi.

Birinci katibin məlumatında vurğulanırdı ki, azərbaycanlılar qədim və özünəməxsus mədəniyyəti olan xalqdır. Onların mənşəyi manna, kadusi, kaspi, alban və başqalarından törəyir, türkdilli kimer, skif, hun, bulqar, xəzər, oğuz, peçeneq və digərləri ilə qaynayıb-qarışıblar. O daha sonra yazırdı ki, hələ XVI əsrdə Səfəvilər zamanında Azərbaycan dilində ədəbiyyat yaranıb. XIX əsrin ikinci yarısından Azərbaycan millətinin formalaşması başlayıb, lakin İranda qəbul olunmuş rəsmi doktrinaya görə bütün əhali iranlı adlanır.

Səfirliyin birinci katibinin məlumatında İranda azərbaycanlıların hüquqlarının kobud surətdə pozulmasına dair konkret faktlar verilirdi. Qeyd edilirdi ki, hələ 1971-ci ilin sonunda Şəfi Cavadinin çap olunmuş "Təbriz və onun çevrəsi" adlı kitabında azərbaycanlıların guya midiyalıların varisləri, Azərbaycan dilinin isə qədim fars dilinin dialektlərindən biri olduğu yazılır. İranda dərslər yalnız farsca keçilir, Azərbaycan dilində hətta ibtidai məktəblər də fəaliyyət göstərmirdi. Təbrizdə müəllimlər ana dilində dərs verdikləri üçün işdən azad edilmişdilər. Təbrizdəki Azarbedaqan Universitetində dərslər farsca keçirilirdi. Təbriz televiziyası hər gün Azərbaycan dilində yalnız 30 dəqiqə xalq musiqisi, folklor və dini mövzuda verilişlər verirdi. Təbriz radiosunda isə Azərbaycan dilində hər gün 2 saat veriliş yayımlanırdı. Ana dilində təhsil almaq imkanlarının olmaması ucbatından Azərbaycanda kəndlilər savadsız qalırdılar. Belə acınacaqlı vəziyyət azərbaycanlı etnik qruplar olan şahsevənlər, qarapapaqlar, əfşarlar, qaradağlılar arasında da hökm sürürdü. Azərbaycan dilində kitabların nəşrinə icazə verilmirdi. Sovet səfirliyinin birinci katibi yazırdı ki, müasir görkəmli Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyar şeirlərinin çoxunu fars dilində çap etməyə məcburdur, onun Azərbaycan dilində olan şeirləri ayrı-ayrı adamlar tərəfindən yarımkustar formada hazırlanıb yayılır. Azərbaycanın Vəli, Xaqani, Qarçarlı (ləqəbi Səhənd) kimi şairləri də ağır vəziyyətdə yaşayıb-yaradırlar.

Çoxsaylı xahişlərə baxmayaraq, Səhəndə "Kitabi-Dədə Qorqud"u çap etməyə icazə verilməmişdi. Aryanpurun "Azərbaycan ədəbiyyatı tarixi" kitabını yalnız fars dilində çap etmək mümkün olmuşdu. 1977-ci ildə nağıllar məcmuəsini Azərbaycan dilində nəşr etdiyi üçün Tehrandakı "Fərzane" nəşriyyatı cərimə edilmişdi. Bundan fərqli olaraq "Quran"ın Azərbaycan dilində təfsirinə icazə verilmişdi. Birinci katib azərbaycanlıların narazılığını da yazırdı. Qeyd edirdi ki, azərbaycanlı əhali mərkəzi hakimiyyətin yeritdiyi siyasətdən kəskin surətdə narazıdır. Ona görə də 1978-ci ilin fevral və may aylarında Təbrizdə keçirilən mitinqlərdə Azərbaycan mədəniyyətinin inkişafına mane olan əngəllərin aradan qaldırılması, farsların "türke xare" ("türk uzunqulaqdır") kimi təhqiredici ifadələrinin rəsmi surətdə qadağan edilməsi qətiyyətlə tələb olunmuşdu. Şərqi Azərbaycan ostanının milliyyətcə azərbaycanlı olan general-qubernatoru general Şəfaqət mənşəcə fars olan polis və jandarma məmurlarına yerli əhalinin milli və dini hisslərini təhqir etməyi qadağan etmişdi.

Şahın həyat yoldaşının şəxsi dəftərxanasının müdiri, İran problemlərini öyrənən qrupun rəhbəri X. Nəhavəndi isə Təbrizdə şah əleyhinə baş verən mitinqləri hökumətin buraxdığı səhvlərin nəticəsi hesab edərək gələcəkdə onların düzəldilməsini tövsiyə etmişdi. Bundan sonra hökumət Azərbaycanda vəziyyəti sabitləşdirməkdən ötrü hər iki ostanın general-qubernatorunu, ali məktəblərin rektorlarını dəyişərək mədəni proqramları həyata keçirəcəyini bildirmişdi.

V. Baranov İran azərbaycanlılarının sovet azərbaycanlılarına sevgisinə dair də çoxlu faktları yazırdı. Qeyd edirdi ki, onlar şimala rəğbət bəsləyir, Azərbaycan dilində Bakı radiosunu dinləyir, Azərbaycan musiqisini kassetlərə yazıb yayır, Azərbaycan klassik ədəbiyyatını və müasir yazıçıları oxuyurlar. Avropadan İrana gələn qonaqlar deyirdilər ki, İranın böyük şəhərlərində bazarlarda Azərbaycan dilində danışmaq fars dilindən daha münasibdir.

Cənub məsələsini incəliklərinə qədər dərindən bilən və azərbaycanlıların vəziyyətinə sovet dövlətinin ümumi siyasəti çərçivəsində biganə qalmayan Heydər Əliyev, ilk növbədə, Azərbaycan SSR-də yaşayan cənublulara xüsusi qayğı göstərirdi. 1969-cu il yanvarın 1-nə olan məxfi məlumata görə, SSRİ-də 12 min 212 nəfər siyasi mühacir (sənədlərdə belə yazılır-M.Q.), 5 min 431 nəfər onlara bərabər tutulan şəxs yaşayırdı. Onların 16 min 749 nəfər övladı var idi ki, bunların da 15 min 538 nəfəri SSRİ-də doğulmuşdu. Həmin mühacirlərin 5 min 109 nəfəri Azərbaycanda idi. 1970-ci il yanvarın 1-də Azərbaycanda 4670, 1971-ci il yanvarın 1-də 4614 nəfər, 1973-cü ildə 4617 siyasi mühacir yaşayırdı. Onlara hüquqca bərabər olan adamların sayı 1836 nəfər idi. Həmin ildə siyasi mühacirlər üçün 142. 500 rubl daimi yardım ayrılmışdı. Siyasi mühacirlər İrandakı qohumlarına 12480 rubl pul baratı göndərmişdilər. 1974-cü ildə isə bu məbləğ 13960 rubl təşkil etmişdi. Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan KP MK-nın qərarı ilə Azərbaycanda olan cənublu mühacirlərə əlavə olaraq maddi yardımlar göstərildi.

Respublika rəhbərinin tapşırığına uyğun olaraq mühacirlərin mənzil problemlərinin həlli sahəsində ciddi addımlar atılmışdı. Azərbaycan SSR Nazirlər Sovetinin 1971-ci il iyul ayının 28-də qəbul etdiyi 184/ 9 №-li qərara uyğun olaraq ehtiyacı olan mühacirlərin mənzillə təmin edilməsinə başlanılmışdı. 1973-cü ildə Bakıda 76, Sumqayıtda 15, Gəncədə 15, Şəkidə 5, Əli Bayramlıda 5 mühacir ailəsinə mənzil verilmişdi.

1974-cü ilin üçüncü kvartalında cənublu siyasi mühacirlərə 115.469 rubl daimi, 39.368.70 rubl məbləğində müvəqqəti yardım edilmişdi.

Göstərilən qayğı və respublikada qazanılan uğurlar cənublular tərəfindən rəğbətlə qarşılanırdı. Onlar Heydər Əliyevi şimal və cənubun lideri olaraq görürdü. Məsələn, Azərbaycan Demokrat Partiyası MK-nın sədri Qulam Yəhya oğlu Danişyan Heydər Əliyevə ünvanlandığı 1974-cü il oktyabr ayının 3-də 109 №-li məktubunda yazırdı ki, partiya adından qan qardaşlarımızın əldə etdikləri yüksək nailiyyətlər münasibətilə Sizi təbrik edirik. Əlavə edirdi ki, bu nailiyyətlər bizi İranın imperializm və irtica əsarətindən azad olmaq uğrunda mübarizəyə ruhlandırır. Göründüyü kimi, cənubi azərbaycanlılar öz mübarizələrində mühüm amil kimi hansı sistemdən asılı olmayaraq, Azərbaycanın şimalının güclü olmasını görürdülər.

Azərbaycan rəhbəri Azərbaycan Demokrat Partiyasının yaradılmasının ildönümünün hər il qeyd olunmasını təşviq edərək əlverişli şərait yaradırdı. 21 Azər hərəkatının 30 illiyi münasibətilə Qulam Danişyan 1975-ci il 5 noyabr tarixli 45 №-li məktubunda Heydər Əliyevdən bir sıra şəxslərin orden və medallarla təltif olunması, müxtəlif vəzifələrdə irəli çəkilməsini xahiş etdi. Xahiş yerinə yetirildi. Cənubluların nümayəndələri müxtəlif sovet və təsərrüfat vəzifələrində irəli çəkildi. Bu addım cənubluların idarəetmə işlərinə yaxından bələd olmalarına və peşəkar kadr kimi yetişmələrinə kömək edirdi.

Cənubi Azərbaycandan olanlar Şimali Azərbaycana təkcə Cənubi Azərbaycan, İran deyil, bütün şərq xalqları nümunə, örnək kimi baxırdılar. Qulam Danişyan 1975-ci il noyabr ayının 3-də H. Əliyevə göndərdiyi 42 №-li məktubunda yazırdı ki, Azərbaycan Respublikasının keçdiyi şanlı qələbələr yolu və əldə etdiyi əzəmətli nailiyyətlər bütün Şərq, xüsusilə İran və İran Azərbaycanı üçün cazibəli örnək və nümunədir. Hazırda qan qardaşlarımız tərəfindən sənaye və təsərrüfat üzrə beşillik planın vaxtından əvvəl yerinə yetirilməsi, Sizin rəhbərliyinizlə son illərdə əldə edilmiş belə möhtəşəm qələbələr bizləri ürəkdən sevindirir, bütün firqə üzvləri və iranlı siyasi pənahəndələri yeni əmək nailiyyətləri üçün ruhlandırır.

1975-ci il yanvar ayının 1-nə olan məlumata görə, Azərbaycanda 4639 cənubi azərbaycanlı siyasi mühacir yaşayırdı. Onlar vətənin bir tayından o biri tayına pənah gətirmişdilər. Həmin ildə Cənubi Azərbaycandan olan siyasi mühacirlərə 119. 637 rubl daimi, 35. 523 rubl isə müvəqqəti yardım verilmişdi. 313 siyasi mühacir İrandakı qohumlarına 12. 520 rubl pul baratı göndərmişdi. 1976-cı il yanvar ayının 1-nə olan məlumata görə, Azərbaycanda 4587 siyasi mühacir yaşayırdı. Həmin ildə Azərbaycan Qırmızı Aypara cəmiyyətinin xətti ilə siyasi mühacirlərə ayrılan yardımlar artırıldı.

Heydər Əliyev Qulam Danişyanın anadan olmasının 70 illiyi münasibətilə "Xalqlar dostluğu ordeni" ilə təltif edilməsi haqqında Azərbaycan KP MK bürosunun 1976-cı il 10 sentyabr tarixli B-19/14 №-li iclas qərarına uyğun olaraq sentyabr ayının 17-də 433 s №-li məxfi məktubla Sov. İKP MK-ya müraciət etdi. Məktubda yazılırdı ki, Qulam Danişyan 1941-1945-ci illərdə İran Azərbaycanında milli demokratik hərəkatda fəal iştirakına görə İran Azərbaycanı milli hökumətinin "Səttarxan ordeni" və "21 Azər medalı" ilə təltif edilib, general rütbəsi alıb, 1946-cı ildən SSRİ-də mühacirətdədir. Heydər Əliyevin bu istəyi yerinə yetirildi.

*(Ardı var)*

**Musa QASIMLI,**
***Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü, professor***

# İki dövlət, bir ordu

## Azərbaycanla Türkiyənin "Qardaş yumruğu" zəfər yürüşünün davamıdır

Antitürk qüvvələrə hərbi-siyasi mesaj xarakteri daşıyan "Qardaş yumruğu" təlimi Azərbaycan və Türkiyənin regionun təhlükəsizliyi üçün əzmlə çalışdıqlarını sübut edir. İki qardaş dövlətə qarşı terror-təxribat əməlləri törətmək istəyən qüvvələr, eləcə də Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə əngəl olanlar "Qardaş yumruğu"nun zərbəsini görmək istəmirlərsə, riyakarlığa son verməlidirlər.



Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Deputatların sözlərinə görə, birgə hərbi təlimlər türk dövlətləri əleyhinə yönələn və maraqlarımıza zidd olan təxribat xarakterli əməllərin qarşısının alınması baxımından əhəmiyyətlidir.

### "Qardaş yumruğu" Şuşa Bəyannaməsinin işə düşdüyünü göstərir

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qeyd edib ki, Azərbaycan İkinci Qarabağ müharibəsindəki qələbəsindən sonra regionda hərbi gərginliyi aradan qaldırmağa və bütövlükdə Qafqaz bölgəsi üçün sülh arxitekturası quruculuğuna xidmət edən beynəlxalq miqyaslı tədbirlər həyata keçirdi: "Həmin layihələrin məqsədi həm də onilliklər ərzində Ermənistanın yürütdüyü təcavüzkarlıq siyasəti əsasında formalaşmış düşmənçiliyin aradan qaldırılması idi. Bunun üçün təkcə sülh danışıqları formatından istifadə edilmirdi. Prezident İlham Əliyev sözügedən kursun əsas elementlərini ən müxtəlif platformalarda ortaya qoyurdu. Bununla da Azərbaycan dövlətinin və xalqının məramını ifadə edir və dünyaya göstərirdi ki, sülh bizim üçün nemətdir. Torpaqlarımız uğrunda savaş bölgədə militaristləşmə strategiyası deyil, əksinə, işğalçılığa qarşı mübarizə idi. Vətən müharibəsi dövründə ona görə qlobal məkanda tərəfdaşlar qazanırdıq ki, biz beynəlxalq hüquqa və ədalətə dayanıqlı kurs yürüdürdük. Bütün bu uğurların əldə olunmasında isə, əlbəttə ki, ötən onilliklər ərzində qardaş Türkiyənin hərbi sistemimizin quruculuğu, inkişafı və modernləşməsi istiqamətindəki töhfələrini unutmaq olmaz".

Komitə sədri hesab edir ki, Vətən müharibəsindəki qələbəmizi həm də Türkiyənin zəfəri adlandırmaq olar: "Təsadüfi deyil ki, bu qələbə bizimlə yanaşı, Türkiyənin də regional və beynəlxalq çəkisini, iqtisadi-siyasi müstəvidə əməkdaş və tərəfdaşlarını artırdı. Bu baxımdan 8 noyabr Azərbaycan və Türkiyənin hərbi və diplomatik əməkdaşlığının və qardaşlığının ortaq zəfəridir".

Z.Orucun sözlərinə görə, ilk olaraq ordumuzun elitası sayılan, 44 günlük Vətən savaşında öndə gedən Xüsusi Təyinatlı Qüvvələrin təlimlərinin keçirilməsi xalqımızda əminlik yaratdı, iradəmizi və gücümüzü artırdı. Bu, yalnız tanklarını Bakıya tuşlayan, simulyasiya proqramları ilə bizi hədəf seçənlərə qarşı deyil, həm də bu niyyətdə olanlara münasibətimiz idi. Deputat vurğulayıb ki, "Qardaş yumruğu" hərbi təlimləri də zəfər yürüşümüzün, qələbə hərəkatımızın dinc dövrdəki davamıdır. Biz bütün dünyaya göstəririk ki, Azərbaycan və Türkiyə bütün platformalarda qardaş ölkələr və hərbi müttəfiqdirlər.

"Birgə təlimlər sübut edir ki, "iki dövlət, bir ordu" formulu kifayət qədər işləkdir. Azərbaycan və Türkiyə insanları eyni millətdir, səngərimiz birdir. "Qardaş yumruğu" hərbi təlimləri həm də Vətən savaşının nəticəsi kimi meydana gəlib. Bu, eyni zamanda, Şuşa Bəyannaməsinin işə düşdüyünü göstərir. Yəni birgə təlimlərin mahiyyəti kiməsə yumruq silkələmək deyil. Azərbaycan heç bir dövlətə işğalçılıq planı üzrə yanaşmır. Yəni dünya azərbaycanlıların hüquqlarının qorunması, din və sekulyarlıq məsələlərinin irəli sürülməsi sadəcə strateji plan və mənəvi-siyasi proqramdır. Bu proqramın hərbi mənada silahlı əməliyyatlar hissəsi mövcud deyil. Ona görə də qonşu dövlətlər bizimlə münasibətdə qarşılıqlı etimad prinsiplərinə əməl etməli və özlərini bu qardaş yumruğu ilə üzüzə qoymamalıdırlar", - deyə komitə sədri deyib.

### Dosta sevinc, düşmənə gözdağı

Milli Məclisin deputatı Məlahət İbrahimqızı qeyd edib ki, birgə həyata keçirilən hərbi təlimlər Azərbaycan-Türkiyə qardaşlığının simvoludur: "Azərbaycan-Türkiyə qardaşlığı elə səviyyəyə yüksəlib ki, "bir millət, iki dövlət" bütün sahələrdə bir yumruğa çevrilib. Dövlətlərimiz digər sahələrdə olduğu kimi, hərbi müstəvidə də əməkdaşlığı inkişaf etdirir, vahid strategiya həyata keçirir. Güclərimiz birləşir, indi Azərbaycan Ordusunu Türkiyə Ordusu və ya əksinə hesab etmək olar. Bu günlərdə həyata keçirilən "Qardaş yumruğu" hərbi təlimi, həmçinin türk dünyasının düşmənlərinə, eləcə də Fransanın və İranın məkrli qüvvələrinə layiqli cavabdır".

Deputat bildirib ki, ardıcıl olaraq həyata keçirilən ikitərəfli və çoxtərəfli hərbi təlimlər bütün dünyaya həmrəyliyin əsl nümunəsini göstərir: "Azərbaycan və Türkiyə ordularının gücü bütün dünyaya məlumdur. Türkiyə Ordusu NATO-ya daxil olan ölkələrin orduları arasında ən güclü ikinci ordudur. Azərbaycanın əsgər və zabitlərinin yenilməzliyinə isə 44 günlük Vətən müharibəsində bütün dünya şahidlik edib. "Qardaş yumruğu" hərbi təlimi də bu ayrı-ayrı güclərin ortaq nöqtədə birləşməsidir. Sözsüz ki, gücə güc qatanda, qüvvə əmələ gəlir. Elə həmin sarsılmaz qüvvə də "qardaşlıq yumruğu" adlanır. Ona görə də bu təlimlər dostlara sevinc, düşmənlərə gözdağıdır. Onu da qeyd etmək lazımdır ki, beynəlxalq hüquqa uyğun olaraq, hərbi müdafiə sahəsində birgə təlimlər keçirmək dövlətlərin suveren hüququdur".





### "Qardaş yumruğu" həm də diplomatik missiya daşıyır

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib ki, qardaş Türkiyə ilə Azərbaycan arasında hərbi-texniki sahədə əməkdaşlıq yüksək inkişaf səviyyəsinə çatıb: "Azərbaycanın müstəqilliyinin hələ ilk illərindən başlayaraq Türkiyə ordumuzun formalaşmasında və müasir tələblərə cavab verəcək səviyyəyə çatmasında mümkün olan dəstəyi verməyə hazır olduğunu vurğulayıb. Xüsusilə, 2000-ci illərdə iki ölkənin hərbi əməkdaşlığı istiqamətində çox təsirli addımlar atılıb. 2007-ci ildən başlayaraq Azərbaycan və Türkiyə yüksək səviyyəli hərbi məsləhətləşmələr həyata keçirməyə başlayıb. Sözsüz ki, Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səmimi qardaşlığı da dövlətlərarası münasibətlərə müsbət təsir göstərib. "Qardaş yumruğu" birgə hərbi təlimlərinin keyfiyyəti də bu səmimiyyətin və dövlətlərimizin hərbi müstəvidəki əməkdaşlığının uzun illərə söykəndiyi göstərir".

E.Mirbəşiroğlunun sözlərinə görə, ordularımızın döyüş qabiliyyətinin artırılması, müdafiə imkanlarımızın genişləndirilməsi baxımından birgə hərbi təlimlərin keçirilməsi vacibdir. Təsadüfi deyil ki, son bir il ərzində iki qardaş ölkə arasında 10-dan çox birgə hərbi təlimlər keçirilib.

"Belə təlimlər işğaldan azad olunmuş ərazilərimizin təhlükəsizliyi və etibarlı şəkildə qorunması üçün ordumuzun döyüş qabiliyyətinin yüksəldilməsini şərtləndirir, bu baxımdan, böyük əhəmiyyət kəsb edir. "Qardaş yumruğu" təlimi həm də diplomatik missiya daşıyır. Azərbaycan və Türkiyə bununla hərbi gücləri ni dünyaya nümayiş etdirir və təhdid yaradan qüvvələrə mesaj verir. Ona görə də birgə təlimlərin həm hərbi, həm də siyasi-diplomatik əhəmiyyəti inkar edilə bilməz", - deyə deputat bildirib.

*Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"*







# "Qardaş yumruğu" regionda təhlükəsizliyin təminatçısıdır

## Azərbaycanla Türkiyəni təhdid etməyə cəhd göstərənlər bundan nəticə çıxarmalıdırlar

*Əvvəli 1-ci səh.*

"Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bu gün ən yüksək zirvədədir və bütün məsələlərdə biz hər zaman bir-birimizin yanındayıq. İkinci Qarabağ müharibəsi bunu bütün dünyaya bir daha göstərdi ki, Türkiyə-Azərbaycan bir yerdədirlər və əziz qardaşımın, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın dəstəyi ilk saatlardan bizi ruhlandırdı. Çünki müharibənin ilk saatlarından başlayaraq Türkiyə və onun Cümhurbaşqanı bizə mənəvi və siyasi dəstək vermişdir. Bu mənəvi və siyasi dəstək müharibənin son gününə qədər göstərildi", - deyə Prezident İlham Əliyev bildirib.

Ötən ilin iyun ayından isə Azərbaycan-Türkiyə münasibətlərinin tarixində məzmun və keyfiyyətcə yeni mərhələnin təməli qoyuldu. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" iki dövlət arasındakı strateji tərəfdaşlığın siyasi və mənəvi təcəssümü oldu. Bəyannamədə diqqəti çəkən ən vacib məqamlardan biri hərbi sahədə əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Burada qeyd edilir ki, iki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birini qoruyacaqlar.

Belə bir müddəanın Şuşa Bəyannaməsində yer alması Vətən müharibəsindən sonra regionda yaranmış reallıqları dərk edə bilməyən bütün dövlətlər üçün mesajdır. Azərbaycanın dövlət suverenliyini təhdid etmək fikrinə düşənlər yeni regional hərbi-siyasi blokla qarşılaşacaqlar.

### Azərbaycan-Türkiyə birliyinin növbəti təzahürü

Bu günlərdə Azərbaycan və Türkiyə silahlı qüvvələrinin müxtəlif qoşun növlərinin şəxsi heyəti, döyüş və xüsusi təyinatlı mühəndis-istehkam texnikası, həmçinin hərbi aviasiya vasitələrinin cəlb olunması ilə respublikamızda keçirilən "Qardaş yumruğu" birgə təlimin göstərdi ki, Şuşa Bəyannaməsi ilə hərbi müttəfiqliyini yeni mərhələyə yüksəldən iki qardaş dövlət hər zaman bir-birinin yanındadır. Türkiyənin milli müdafiə naziri Hulusi Akarın rəhbərliyi ilə Baş Qərargah rəisi ordu generalı Yaşar Güler, Quru Qoşunları komandanı ordu generalı Musa Avsever, Hərbi Hava Qüvvələri komandanı ordu generalı Atilla Gülan, Hərbi Dəniz Qüvvələri komandanı donanma admiralı Ercüment Tatlıoğlunun Azərbaycana səfər etmələri Türkiyənin siyasi-hərbi rəhbərliyinin "Qardaş yumruğu" hərbi təliminə verdiyi böyük önəmin göstəricisidir.

"Qardaş yumruğu" təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan telefon zəngi ilə iki qardaş ölkənin təlimdə iştirak edən şəxsi heyətlərini təbrik ediblər. İlham Əliyev "Qardaş yumruğu" təliminin Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürü olduğunu qeyd edib, birliyimizin sarsılmaz və əbədi olduğunu vurğulayıb. Rəcəb Tayyib Ərdoğan isə təbrikində "Bir millət, iki dövlət" anlayışı ilə keçirilən təlimin uğurla həyata keçirildiyini bildirib və heç kimin ayıra bilməyəcəyi birliyimizin gələcəkdə də davam etdiriləcəyini diqqətə çatdırıb.

### İran "Qardaş yumruğu"ndan dərsini aldı

Əvvəldə qeyd edildiyi kimi, Türkiyə dövləti Vətən müharibəsində Azərbaycana birmənalı şəkildə dəstəyini nümayiş etdirdi. Eləcə də dost dövlətlərdən, xüsusən müsəlman ölkələrindən Azərbaycana dəstək mesajları gəldi. Lakin Azərbaycanla ortaq dini dəyərləri bölüşən, özünü dünyada "müsəlman təəssübkeşi" kimi göstərən İran Vətən müharibəsindən sonra Azərbaycana qarşı aqressiv ritorikasını daha da artırdı.

Məlumdur ki, hələ müharibədən əvvəlki dövrdə İran Azərbaycanla münasibətlərin ruhuna zidd davranaraq, ölkəmizin daxili işlərinə qarışmağa cəhd edirdi. Əlbəttə, Azərbaycan İranın "imperializmlə mübarizə" adı altında xaosa sürüklədiyi ölkələrdən deyil. Azərbaycanda İranın "İmam Xomeyni İmdad Komitəsinin" və Mədəniyyət Mərkəzinin din amili üzərindən həyata keçirdikləri hoqqabazlıqlar iflasa uğrayıb. Riyakar planları baş tutmadığına görə bu ölkənin siyasi, dini və hərbi dairələri zaman-zaman Azərbaycan əleyhinə şüarlar səsləndiriblər.

İranın fars rejimi Cənubi Azərbaycan faktoruna görə müstəqil Azərbaycan dövlətinin mövcudluğundan hər zaman qorxub və elə bu üzdən müsəlman qiyafəli "molla"lar Ermənistana qucaq açıblar. Azərbaycanla sərhədlərin 30 il işğal altında qalmasına göz yuman İranın Vətən müharibəsindən sonra sərhədlərin toxunulmazlığını özünün qırmızı xətti elan etməsi, Ermənistanın Qafan şəhərində konsulluq açması bir daha İranın əsl xislətini üzə çıxardı. Bütün bunların fonunda bu gün sülhə əngəllər yaratmağa cəhd edən İranın 30 il müddətində Fransa ilə birlikdə işğala da dəstək verdiyi məlumdur.

Vətən müharibəsindəki qələbə Azərbaycanın mövqelərini daha da möhkəmləndirib. Eləcə də Zəngəzur dəhlizinin açılması ilə türk dünyasının birbaşa coğrafi əlaqəsi möhkəmlənəcək. Bütün bunlar bir daha İranın düşmən simasını üzə çıxarır. 30 ilə yaxın Azərbaycanla sərhəddə bircə hərbi təlim keçirməyən İran indi dalbadal təlimlər keçirir, əzələ nümayiş etdirmək istəyir. İranın gücü isə hər kəsə məlumdur. İndiyə qədər "himayə etdiyi müsəlmanları" xaosdan çıxara bilməyən İranın molla rejimi ötən 40 ildə heç bir müharibədə qalib ola bilməyib.

Bu mənada Azərbaycan və Türkiyə silahlı qüvvələrinin "Qardaş yumruğu" birgə hərbi təlimi İrana verilən ən gözəl cavabdır. Sərhədlərimizdə Araz çayının keçilməsini məşq edənlər bundan öz dərslərini aldılar. "Azərbaycana və ya Türkiyəyə qarşı məkrli planları olanlar bilməlidirlər ki, türk ordusu tək deyil, orada, həmçinin bizim ordu da var. Bizim ordu isə tək deyil, o cümlədən orada türk ordusu da var. Sərhədimizdə təxribatları planlaşdıranlar, bizi qorxutmağa çalışanlar bu planlarını yaddan çıxarmalıdırlar", - deyə Prezident İlham Əliyev bildirib.

*Azərbaycanla Türkiyəni təhdid etmək fikrinə düşənlər hər zaman qarşılarında "Qardaş yumruğu"nu görəcəklər. İranın da bu təlimlərdən lazımi nəticə çıxarması, təxribatlardan əl çəkməsi, tarixi reallıqları qəbul etməsi qaçılmazdır. Azərbaycanla Türkiyənin müttəfiqliyi isə həm də bütövlükdə regionda təhlükəsizliyin təminatçısıdır.*

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Təbii ehtiyatlarımızın qanunsuz istismarının dayandırılması məsələsi sülhməramlıların komandanlığı ilə müzakirə edilib

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi təbii ehtiyatların qanunsuz istismarını araşdıracaq monitorinq qrupunun Azərbaycan Respublikasının ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə görüş keçirməsi barədə birgə məlumat yayıb.

AZƏRTAC-a daxil olan birgə məlumatda bildirilib ki, dekabrın 3-də keçirilmiş müzakirələrin davamı olaraq, dekabrın 7-də İqtisadiyyat Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər törəmə fəsadlar ilə bağlı Xocalıda Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə görüş keçirib.





Görüşdə faydalı qazıntı yataqlarına, xüsusilə Qızılbulaq qızıl və Dəmirli molibden yataqlarına yerində baxış, qanunsuz istismarın dayandırılması, müxtəlif istiqamətlər üzrə monitorinq və inventarizasiyanın aparılması, əmlakın kadastr uçotunun təşkili, ətraf mühitə, yeraltı və yerüstü su mənbələrinə potensial zərərin və risklərin qiymətləndirilməsi və dəymiş zərərin nəticələrinin aradan qaldırılması məsələləri müzakirə olunub.

Görüş konstruktiv ruhda keçib. Aidiyyəti üzrə təmaslar davam etdiriləcək. İctimaiyyətə əlavə məlumat veriləcək.

## Azərbaycan Ordusunun Kəlbəcər istiqamətindəki mövqeyi atəşə tutulub

Dekabrın 7-si saat 12:45 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Ağqaya yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyi atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 10 noyabr (Bazar günü) tarixli XXXV nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

*Sülh və azadəlik başarəti [şad xəbəri, muştuluğu] verildiyi zaman sinfi düşüncə, cəbhədə və arxada ancaq düşmənlərin nəfinə [xeyrinə] olacaq təməlsiz hərəkət yapmağa imkan verməz. Yaxında olan sülhə qədər və bunun əqdindən sonra bizim qarşımızda ağır günlər vardır. Gələcək zamanın, millətlərin, demokratiyanın və sosializmin sülh amalına məxsus olacağı fikir və düşüncəsi ilə biz o günlərə təhəmmül edib və edəcəyik [dözəcəyik; qatlaşacağıq].”*

## YƏHUDİLƏR VƏ SÜLH

Yəhudi siyasi dairələrində son hadisat ilə əlaqədar olaraq bütün cahan yəhudilərinə müraciətlə, gələcək Sülh Konqresində yəhudilərə də müsaviyyülhüquq [bərabərhüquqlu] bir millət kimi yer verilməsinin tələb olunması lüzumu göstərilməsi müzakirə edilməkdədir. Bu məsələnin araya gəlməsinə səbəb bu olmuşdur ki, Müttəfiqlərin tələbi ilə yeni təsis olunan dövlətlərdə yəhudi nümayəndəliyi məsələsi ən fəna bir halda buraxılmışdır. Halbuki konqredə məzkur [adıçəkilən] dövlətlər öz camaatları haqqında danışarkən, eyni zamanda içlərindəki yəhudilər xüsusunda da danışacaqlardır.

Bütün cahan yəhudilərinə müraciət məsələsi ümum yəhudi siyasi dairələrində hüsnrəğbətlə qarşılanmışdır.

## UKRAYNADA

* Bu vaxtadək Getman və bütün hökumət Alman-Avstriya komandanlığı təsvibi [təsdiqləməsi] ilə iş görürmüşlər. Bunlar daxili işlərə belə müdaxilə etməyə muxtar [ixtiyar sahibi] imişlər. Axırıncı qərb cəbhəsi müvəffəqiyyətsizliyindən naşi [ötrü] Ukraynanın daxili və xarici siyasətində zor bir inqilab əmələ gəlmişdir. Paris və Vaşinqtona siyasi nümayəndələr göndərilmişdir. Almaniya komandanlığı buna mümaniət [maneçilik] göstərməmişdir. Alman-Avstriya siyasəti yürüdən Şurayi-Vüzəra [Nazirlər Kabineti] istefa vermişdir. Əvəzində isə Müttəfiqlər tərəfdarı hökumət iş başına keçmişdir. Ən yaxın zamanda Ukraynanın siyasəti-xariciyyəsində [xarici siyasətində] mühüm təbəddülat [dəyişikliklər] olacağı gözlənir.

* Təşrini-əvvəlin [oktyabrın] 18-ində Avstriya inqilabı zamanı Lvovda Qaliçya və Bukovina ukraynalılarının iclası olmuşdur. İşbu ictima [yığıncaq] baş idarəni əlinə alaraq, özünü Avstriya ukraynalılarının Məclisi-Müəssisanı [Təsisçilər Məclisi] elan etmişdir. Burada Avstriya Ukraynasının əsl Ukraynaya mülhəq edilməsi [birləşdirilməsi] cərəyanı davam etməkdədir. Belarusiyanın Ukraynaya mülhəq edilmək məsələsi qalxmışdır. Belaruslar isə əvvəlcə məmləkətlərinin istiqlaliyyəti təsdiqini tələb edirlər. İlhaq [birləşmək] məsələsini isə sonraya buraxırlar.

## LİTVANIN GƏLƏCƏYİ

Litva məlumat bürosu xəbərdar olmuşdur ki, Vilson Litva Şurası sədrinə Vaşinqtonda bir sənəd verib, Litvanın müstəqil bir hökumət olduğunu etiraf ilə Şərqi Prussiya və Köniqsberq daxil olmaqla Litva oblastlarının milli hökumət təşkili üçün birləşdiriləcəyini vəd etmişdir.

## MİLYUKOVUN PLANLARI

Milyukov “Trans-Okean” agentstvosunun müxbiri ilə etdiyi müsahibəsi əsnasında izhar etmişdir ki, millətlərin gələcək ittifaqının birinci iqdamatı [addımı] Rusiyanı bolşevik hərc-mərcliyindən azad edib Rusiyada məşruti [konstitusional] hökumət təsisi ilə asayiş və qanun bərpa edilməsi olmalıdır. Bu tövr məşruti hökumətdir ki, ancaq bizə müavinət [yardım] edə bilər. Məmləkətin əlahiddə hissələrinin cümhuriyyət arzuları təzə mərkəzi hökumət təşkilindən sonra feilən hasil olmalıdırlar, məmləkətin əlahiddə hissələrinin camaat nümayəndəliyi birləşmək lüzumunu dərk etməlidirlər. Bolşeviklər əleyhində ancaq Könüllü ordu ilə əməliyyatda bulunmaq olar.

Milyukov öz söhbətinin axırında demişdir ki, mən həmişə ancaq rus siyasətini təqib edib, heç vaxt nə alman tərəfdarı, nə də ziddi olmamışam.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Şurayi-Vükəlanın [Nazirlər Kabinetinin] son iclasında şu zeyldəki [aşağıdakı] qərardadlar qəbul edilmişdir:

1. Bakı Bələdiyyə İdarəsinə istiqraz surətilə üç milyon rublə vermək.
2. Nafiə və Səhiyyeyi-Ümumiyyə [Sosial Təminat və Xalq Səhiyyəsi] nazirinin ixtiyarına bir milyon rublə buraxmaq.
3. Kontrol nazirinə ən yaxın vaxtda sabiq qaçqınlar təşkilatlarını təftişə başlaması tövdi edilmək [tapşırılmaq].
4. Doktor Mahmud bəy Əfəndiyevi dəvət edib Azərbaycan Hökuməti tərəfindən onu Batuma nümayəndə təyin etmək.
5. Əhaliyə tibbi müavinətdə [yardımda] bulunmaq və hazırda hökmfərma olan [hökm sürən] xəstəliklə mübarizə üçün Səhiyyeyi-Ümumiyyə [Xalq Səhiyyəsi] nazirinə para təxsis etmək [ayırmaq].

## AZƏRBAYCANDA

**Ermənilərin təcavüzü**

Gəncədən Hökumət və qəzetəmiz idarəsinə ermənilərin sərhəd təcavüzü haqqında atidəki [aşağıdakı] iki teleqraf çəkilmişdir:

*“Təşrini-saninin [noyabrın] 2-sində erməni əsgərləri Azərbaycan sərhədini keçib, silah gücünə Göyçə müsəlmanlarının təslim olmalarını tələb etmişlərdir. Hal-hazırda ermənі əsgərləri əhalini qarət edib, irz-namusa əl atmaqdadırlar. Müsəlmanların irz-namusunun, həyat və əmvalının [mallarının] vəhşilər əlindən xilası üçün təd- birlər görülməsini 60 min müsəlman namından [adından] rica eyləriz.*

*Gəncə uyezdinin 9-cu hissəsi: Sultanov.”*

*“60 min müsəlman əhalisi sərhədi keçən ermən əsgərlərinin vəhşiyanə təərrüz [hücum] və təcavüzlərinə məruz qalmışlardır. Millətin irz-namusunu, bigünah uşaqları və arvadları xilas ediniz. Bizim bu ilticamızı [yalvarışımızı; yardım istəməyimizi] eşidib Göyçə əhalisinə kömək göndəriniz.*

*Gəncə uyezdinin 9-cu hissəsi: İdris.”*

Bu münasibətlə Azərbaycan Hökuməti Ermənistan Hökumətinə protesto vermişdir.

## HƏRB ÜZÜNDƏN CƏMİYYƏTİ-BƏŞƏRİYYƏNİN ZAYİATI [BƏŞƏRİYYƏTİN İTKİLƏRİ]

Bu sərlövhə ilə “İqdam” qəzetəsi müharibədə Etilaf dövlətlərinin verdiyi tələfatı şu qərar ilə təsvir edir:

Berlin, 2 ağustos (M. A.) - Daha 1918 sənəsi 2 ağustosda Etilaf zayiatı [itkiləri] ən ehtiyatkaranə təxminlərə görə 18 milyon kişiyə [nəfərə] baliğ olurdu [çatırdı]. Etilafın hər tərəfdə uğradığı qanlı həzimətlər [məğlubiyyətlər] kəndisinə fövqəladə fədakarlıqlara mal olmuş [başa gəlmiş] və yekun zayiatını 25 milyon kişiyə iblağ eyləmişdir [çatdırmışdır]. Rusiya düvəli-qərbiyyə [Qərb dövlətlərinin] amali-fütuhat-cuyanəsinə [yeni yerlər fəth etmə arzularına] müzahirət [yardım] üçün 4,5 milyon məqtul [ölü], 6 milyon məcruh [yaralı] və məlul [şikəst], 3 milyon da əsir vermişdir. Fransız və ingilislər yalnız 1918 sənəsində Flandriyada yarım milyondan pək fazla əsgər zaye etmişlər [itirmişlər] və alman təərrüzünün [hücumunun] ilk 3 ayı zərfində [müddətində] daha bir milyon əsgər qeyb etmişlərdir. Fransızların təşrini-əvvəl [oktyabr] zərfində Şmen-de-Damda və ingilislərin 1917 təşrini-sanisi [noyabrı] zərfində Kambre qərbində düçar olduqları zayiat ilə Foşun son müqabil təərrüzü [əks-hücumu] nəticəsində uğranılan zayiat yekunu fransızlar üçün 2 milyon 800 minə baliğ olmuşdur.

İtaliya da dördüncü hərb sənəsində müttəfiqlərindən daha az mütəəssir olmuş deyildir. İtaliya da şimdiyə qədər 3 milyona yaxın zayiat vermişdir.

Hərbdən bilxassə [xüsusən] mütəəssir və mütəzərrir olan [zərər görən] millətlər isə Etilafa müavin [yardım edən] millətlərdir. Serbistan, Rumıniya, Belçika, Qaradağ [Monteneqro] və Amerikanın zayiatı fransız, ingilis və italyan zayiatına əlavə ediləcək olarsa, Etilafın yekun zayiatı İspaniya ve Portəgiz nüfusi-ümumiyyəsi [ümumi əhalisinin] miqdarına, yəni 25 milyon kişiyə baliğ olur.

Bu qədər tələfatla bərabər Etilaf dövlətləri 10 milyonlarca bahaya mal olmuş külli miqdarda silah və sairə qeyb etmişdir ki, onun miqdarı bu qərar ilədir:

Berlin 1 ağustos (K.) - Mərkəzi dövlətlərin 4 sənəlik qənaiminə [qəni-mətlərinə] dair Volf ajansının qərb cəbhəsi müxabiri [müxbiri] bərvəchiati [aşağıdakı kimi] işar edir [məlumat verir]:

Dördüncü hərb sənəsi nəhayətində Mərkəzi dövlətlər üsəra qərargahlarında [əsir düşərgələrində] bulunan əsirlərin ədədi 3 milyon 800 mini mütəcavizdir [keçmişdir]. Bunun 2 milyon 300 mini Almaniyada bulunur. Son hərb sənəsi zərfində 840 min əsir alınmışdır.

Son sənənin qənaimi [qənimətləri] ilə birlikdə məcmuyi-qənaim [qənimətlərin cəmi] şu rəqəmləri iraə edir [göstərir]:

2 ağustos 1917-də top qənaimi 19156-dan ibarət olduğu halda, şimdi 23000-ə baliğ olmuşdur [çatmışdır]. Mitralyozlar 8352-dən 38000-ə, yəni dörd buçuq mislinə qədər çıxmışdır. İğtinam edilən [qənimət olaraq ələ keçirilən] arabalar isə keçən sənə 10640-dan ibarət olduğu halda, şimdi 7 misli fazlasıyla 65000 ədədinə rəsidə olmuşdur [çatmışdır]. Zirehli avtomobillərə gəlincə, təxrib edilənlər [sıradan çıxarılanlar] xaric olmaq üzrə almanların əlinə 365 dənə keçmişdir ki, bunun 300-ü dördüncü hərb sənəsinə aiddir. Bundan maəda [başqa] son sənə zərfində bir milyon tüfəng, 6 milyon top mərmisi, 200 milyon piyada fişəngi, 3000 lokomotiv, 28000 şiməndifər [qatar] vaqonu iğtinam edilmişdir.

Düşmənə iras edilən [verilən] zərərlər arasında rəqəmlə iraə ediləmməyən [göstərilə bilməyən; ifadə edilə bilməyən] qisimlər də vardır. Məsələn, hər növ dəmir və tel ədəvat [avadanlıqlar], barakalar [baraklar, asanlıqla quraşdırılan yüngül binalar], xəstəxanalar, əlbisə və təchizat, depolar, səhra şiməndifər alatı [alətləri], məhruqat [yanacaq] və sairə xüsusunda qərb və şərqdə alman təərrüzlərinin [hücumlarının] hüsula gətirdiyi təxribat bu qəbildəndir.

Bu məlumatda Alman Baş Komandanlığının düşmənin qüvveyi-hərbiyyəsini zəiflətməyə mətuf olan [istiqamətlənən] məqsədində nə qədər müvəffəq olduğu anlaşılır. Etilafın marrəzzikr [yuxarıda qeyd edilən] zayiatı sərvəti-milliyyəsini bir çox milyarlar nöqsana uğratmışdır.

## CÜMƏGÜNKÜ MÜHÜM XƏBƏRLƏR

* Tiflisdə müntəşir [nəşr olunan] “Qruziya” qəzetəsində Almaniya imperatoru Vilhelmin əhaliyə xitabən nəşr etdiyi manifesti dərc edilmişdir. Manifestdə Vilhelm Reyxstaqın məşrutiyyət [konstitusiyalı monarxiya] qanunlarını dəyişməsini təsdiqlə elam edir [bildirir] ki, sabiq idarə Almaniya millətinə bir çox mənfəət gətirmiş, bundan dolayı da tarixdə ən mühüm bir səhifə tutmaqla millətin razılığına məzhər [nail] olacaqdır. Siyasi tərzi-idarənin ikinci pilləsi bütün idarəni xalq əlinə vermək məsələsidir.

*“Mən bununla razıyam. Reyxstaqın işbu qətnaməsini millətin rifahi-halı səbəbi əd etdiyim [saydığım] üçün qövldən feilə [sözdən işə] gətirilməsinə var qüvvəmlə çalışacağam. İmperator olmaq xalq xadimi olmaq deməkdir. Xalq özünə lazım olan qayda və qüvvələri alıb, işə sövq etməlidir; fəqət [ancaq, yalnız] biz bununla indiki qaranlıq mühitdən işıqlığa çıxacağıq.”*

* Xalq Komissarları Şurası bir dekret nəşr edərək bütün altun əşyanı xalq və hökumət nəfinə [mənfəətinə] verməyi tələb etmişdir. Fəqət altun xaç, təsviri-Məsih [İsa peyğəmbərin təsviri] və altun namizədlik [nişan] üzüyü saxlamaq olar. Başqa altun əşya və paranı gizlədəcək əşxas [şəxslər] İnqilab Tribunalı qarşısında məsul olacaqlar.

* Trotski əmri mövcibincə [əmrinə əsasən] Qırmızı ordunu fəna [yaramaz] ünsürlərdən təmizləyəcəklər. Əşxas [şəxsləri] mərkəzi ordugaha göndərəcəklər.

* Mühafizə naçalniki və şöbə komandanı Didebuladze Hərbiyyə naziri ilə Sanaindəki general qubernator Tsulukidzeyə böylə bir teleqram çəkmişdir:

*“593 və 655 nömrəli trenlər keçdilər. Trenlərdə qaçqınlar namı ilə bir çox erməni saldatı, zabitan və şəfqət bacıları keçmişdir. Bunların rəftarı düşmənanə və hərbcuyanə [müharibə istəyən, davakar] idi. Bunlar bir çox qaçaq mal və silah aparmışlar. Qapalı vaqonları ərzaq deyə keçirmişlər. Rica edirəm ki, böylə trenlər təhərri [axtarış] və təcəssüsdən [yoxlamadan] sonra buraxılsın və gələcəkdə böylələrin buraxılıb-buraxılmaması barəsində məlumat verəsiniz.”*

* Təşrini-saninin [noyabrın] 3 və 4-ündə Poti limanına 4 alman vaporu varid olmuşdur. Ləvazimat və qoşun vaporlara yerləşirlər.

* Təşrini-saninin 3-də bütün mövqiflərdən [stansiyalardan], o cümlədən Tiflis mövqifindən Alman Komandanlığı mühafizə[si] götürülmüşdür. Təşrini-saninin 4-ündə ləvazimat vaqonlara yerləşdirilmişdir.

* Odessa general-qubernatorunun məlumatına görə, Odessada inqilaba təşviqedici müraciətnamələr nəşr edilmişdir. General-qubernator böylə iqdamatın [təşəbbüslərin] silah zoru ilə yatırılacağını xəbər vermişdir.

* Ukraynadakı vəziyyətdən naşi [ötrü] menşeviklər mürəvvici-əfkarı [fikirlərini yayan] “Yujnı raboçi” qəzetəsi bolşeviklərin hökuməti əllərinə almaq təşəbüsatına iqdamatda bulunacaqlarını [başlayacaqlarını, addım atacaqlarını] dərmiyan etməklə [meydana atmaqla], bütün demokratiyanı [xalqı] bələdiyyə ətrafına toplaşmağa dəvət edir.

* Avstriya Hökuməti əmri mövci-bincə [əmrinə əsasən] təşrini-əvvəlin [oktyabrın] 25-dən etibarən şəhərdə ictima [toplaşmaq] qadağan edilmişdir. Sabiq bələdiyyə idarəsi üzvü Şumilin bolşevizmdə müttəhim və tövqif [həbs] edilmişdir.

## ŞAYİƏLƏR

Aralarda bir çox şayiələr dəvəran edib [dolaşıb] durmaqdadır. Burada insanlar canlı teleqraf ağacı kəsildi. Bəşəriyyətə milyonlarca qurbana mal olan millətlər müharibəsi, uğursuz cilvəsinin son mənzərəsini göstərməsi də müdhiş kimi. Dost, düşmən, hər kəs həyəcanlar içərisində, hər millət bu gündən çox yarını düşünməkdədir. Kəndi mövqeyini haqqıyla təqdir etdiyi üçün Vilsonun istiğnası [özünü naza çəkməsi] da çoxaldıqca çoxalmaqdadır. Hərbi-ümumidən sonra sülhi-ümumi olacağına – qaliba [deyəsən, güman ki] – inananlar inanmayanlardan daha çox çıxdı. Bunların həpsi yolunda, əsl insana can sıxıntısı verən soqaq [küçə] siyasətçilərinin dedi-qodularıdır. İşin içinə bir də bəzi Tiflis qəzetələrinin röyalı uydurmaları girərsə, ağız deyəni qulaq eşitməz.

Bakı bu gün bu haldadır. Bu millətlər sərgisi şəhər bütün dünyanın müqəddəratını köşə başlarında həll etməyə qalxışmışdır. Hər kəsdə bir şaşqınlıq. Bu başsızlıq qəzetə və acentəliklərə də sirayət etmiş olmalı ki, dün verdikləri xəbər bugünkünə qətiyyən uymamaqdadır. Mən bu şayiələrin əsasını bilmək məqsədi ilə məmləkətdə mühüm bir mövqe işğal edən [tutan] bir zatı ziyarət etdim. Aldığım cavablar mənə aşağıdakı təsirləri yapdı:

Əvvəla, birinci yanlışlıq burasındadır ki, mütarikəni müsalihə təbir eyləyirlər [atəşkəsi sülh kimi yozurlar]. Bu gün türklər ingilislərlə müsalihə [sülh] deyil, mütarikə [atəşkəs] etdilər.

Öyləcə, mütarikə üçün şərt qoyulan bir maddənin sülh üçün də şərt olacağını söyləyənlər aldanırlar. Mütarikə şərtlərinin ağırlığı zatən bir sülh hazırlığıdır. Vilsonun maddələri üzərinə qəbul edilən bir sülhün bütün millətləri məmnun edəcəyini söyləmək artıqdır belə. Bu müharibədən türkün istədiyi zatən bundan başqa bir şey deyildi. Bundan zərər görənlər istila üçün hərbə iştirak edənlərdir. Ərəbistanın bir dövlət olmasından Türkiyəyə qətiyyən zərər yoxdur. İslam dünyasındakı millətlərin istiqlaliyyət qazanması üçün türklər o millətlərdən çox artıq fədakarlıqlarda bulundular. Binaileyh [ona görə] buna dürlü-dürlü mənalar verib bədbin olmağa qətiyyən ehtiyac yoxdur. Böylə zamanlarda daima əleyhimizdə bulunan Tiflis qəzetələrinin uydurmalarına qarşı gəvşək [yumuşaq; zəif] davranmamalı. Düşmənin ağzından doğru eşidəcəyəm deyə ona könül vermək, sinir zəifliyindən başqa bir şey deyildir. Bu gün sülh etmək istəyən yalnız biz deyiliz, bütün dünya millətləridir. Bu sülhə məğlubiyyət mənası verənlər bizim əzm və səbatımıza inanmayanlardır.

Vətənin ən uzaq bir guşəsini verməmək üçün illərcə çarpışan türk milləti kimi, dövləti də yaşıl masanın işlərindən büsbütün xəbərsiz deyildir.

Düşmən sözünə uyub rahatsız olmaqdansa, mətanətli davranmaq böylə günlərdə daha faydalıdır. Qələbə qüvvətli imandadır.

*Cavad*

## BAKI XƏBƏRLƏRİ

* Ərzaq İdarəsi Yalama stasyonundan 5 yüz sajen odun gətirilməsinə Ziraət Nəzarəti [Kənd Təsərrüfatı Nazirliyi] tərəfindən icazə almışdır. Ərzaq İdarəsi bu odunları Bakıya gətirməkdən ötrü Dəmiryol Nəzarətinə müraciətlə hər bir qatarı 40 vaqondan ibarət 3 qatar verilməsini xahiş etmişdir.

**“Avetik” paraxodunun vürudu [gəlişi]**

Cümə günü saat 12-də “Avetik” paraxodu sərnişinləri ilə bərabər Bakıya varid olmuşdur. Bu paraxod Hacı-Tərxandan çıxıb Petrovsk və Krasnovodska getdikdən sonra Bakıya tərəf hərəkət etmişdir. Sərnişinlərin rəvayətinə görə, onlar üç həftədir ki, Hacı-Tərxandan çıxmışlardır. Həmin paraxod ilə 1070 nəfər sərnişin gəlmişdir. Sərnişinlərin çox hissəsi Hacı-Tərxanda qalıb Bakıya gələ bilməyən ruslardan ibarətdir. “Avetik” paraxodu kapitanının söylədiyinə görə, Petrovsk iskələsində vaqe olan yanğın əsnasında iskələdə olan “Admiral Kornilov” paraxodu yanıb tələf olmuşdur. Yanğından insanca dəxi tələfat vadır. Paraxod kapitanının söylədiyinə görə, Petrovsk iskələsi naməlum şəxslər tərəfindən yandırılmışdır.

**Ticarət iskələsində**

Azərbaycan Türüq və Məabir Nəzarətinin [Nəqliyyat və Rabitə Nazirliyinin] Bakı paraxod şirkətləri və bu kimi müəssisələr nümayəndələrinin iştirakı ilə təşrini-əvvəlin [oktyabrın] 29-unda bir iclas olmuşdur. İclasda ticarət vaporlarının sahiblərinə qaytarılması məsələsi müzakirə edilmişdir. İclas Türüq və Məabir Nəzarəti müvəkkili mühəndis Yututskinin sədarəti [sədrliyi] altında iniqad etmişdir [baş tutmuşdur]. Sabiq nahiyə Su Nəqliyyatı İdarəsi üzvlərindən Krılşev, Mixerev də isbati-vücud [iştirak] etmişlər. Sədr hazirunu [iştirak edənləri] Azərbaycan Hökuməti qətnaməsilə aşina [tanış] edərək, milliləşmiş müəssisələrin sahiblərinə qaytarılması məsələsini söyləmişdir. Mübadileyi-əfkardan [fikir mübadiləsindən] sonra məlum olmuşdur ki, milliləşmək zamanındakı tələbatı böyük şirkətlər az zamanda hazır etməkdən acizdirlər. İclasda qət edilmişdir ki, Hökumət tərəfindən təyin edilmiş vaxtadək öz tələbatlarını elam etsinlər [bildirsinlər]. Fəqət Hökumət nəzdində daha geniş surətdə pişnihad [təqdim] etmək və uzatmaq üçün təşəbbüsatda bulunulsun.

Donanma getdikdən sonra Bakıda qalmış və xidmətə qəbul edilmiş gəmi nəfəratı və idarə əzasına [üzvlərinə] gəmi sahibləri sentyabrın 15-indən etibarən mayısda təyin edilmiş qərarla, sair xidmətçilərə isə xidmətə qəbul və ifayi-vəzifəyə şüru [vəzifəsini yerinə yetirməyə başlama] günündən etibarən maaş verilməlidir. Xidmətə qəbul edilməyənlərə pul verilməsin, amma gəmiləri mühafizə edib də xidmətə götürülməyənlərə 15 sentyabrdan pul verilsin. Ticarət donanmasının Bakıya qayıtması ehtimalı haqqında gəmi sahiblərinin rəyi bu olmuşdur ki, ticarət gəmisi şəhərə qayıtdıqda tamam qış işləməyib təmir ediləcəkdir və o qədər də bəhriyyəni [dənizçini, matrosu] saxlamaq gəmi sahibləri üçün güc olacaqdır.

**Bayılov məhbəsinin fəsx [ləğv] edilməsi**

Aldığımız məlumata nəzərən, Bayılov məhbəsi fəsx ediləcəyinə binaən [görə], oradakı məhbusları mərkəzi Tağıyev həbsxanasına köçürürlər. Orada isə fəqət [yalnız, ancaq] qadınlar ilə xəstələr qalmışdır.

* Bu vaxtadək Daxiliyyə Nəzarəti cənbində [nəzdində] olan Müsadirə şöbəsi bu günlərdə Bakı valisinin təhti-idarəsinə [idarəsi altına] keçəcəkdir.

## XARİCİ XƏBƏRLƏR

**Ermənilərə Müavinət Komitəsi**

İstanbulda müntəşir “İqdam” qəzetəsinin yazdığına görə, Hökumatı-Müttəhideyi-Amerikanın [Amerika Birləşmiş Ştatlarının] ermənilərlə məskun vilayətləri və “Şərqin digər məhəllərini [yerlərini]” himayə etməsi üçün Amerikada fəal bir propaqanda yapılmaqda olduğu yazılmışdı. Vaşinqtondan yazıldığına görə, Amerikanın sabiq İstanbul səfiri Morqentau və Elkusun təşəbbüsü ilə şəhri-məzkurda [adıçəkilən şəhərdə] bir “Erməni-Suriya Müavinət Komitəsi” təşəkkül etmişdir. Bu komitə Şərqi Anadolu, Suriya və İranda bir Amerika himayəsi vəz [əmələ gətirmək] və təsis etmək qayəsi ilə təbliğat yapmaq üçün ianələr cəm edəcəkdir.

Türk Ocağına üzv olmaq istəyənlər hər gün sabah saat 10-dan saat 1-ədək, axşam saat 4-dən 6-yadək Nikolayevski küçədə Hüseynovun mülkündə sabiq “Raboçi klub” mənzilində Türk Ocağına rücu [müraciət] etməlidir.

*247*


Pyerin qadınlara məxsus
bərbər dükanı
**“Bazil”**
Ünvan: Qorçakovski caddədə nömrə 10.
*254 1-1*

**Doktor F. S. Şteyn**
Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.
Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, “Jorj” əksxanası. Telefon nömrə 54-44.
*232*

**Diş təbibəsi Altmanın diş müalicəxanası**
Naxoşları qəbul edir saat 8-dən 1-ə kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.
Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.
*245*

**Doktor Ağahüseyn Kazımov**
Əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olanları qəbul edir hər gün saat 5-dən 7-yə kimi. Parapet, Şəbi İbrahimovun evində, 3-cü mərtəbə. Telefon 27-86.
*244*

**Mama-feldşer M. K. Markoviç**
Hamilə və azad olmuş qadınları qəbul edir. Bədənə dərman vurur və masaj edir. Hər gün saat 10-dan 12-yə kimi. Nijni Kladbişinski caddədə ev nömrə 89. Telefon 34-36. Burada həkim daxiliyyə və əmrazı-tənasüliyyə [cinsi xəstəliklər], qadın və cərrahiyyə naxoşları saat 3-dən 5-ə kimi qəbul edir.
*240*

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**
Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün saat 9-1-ədək, saat 4-7-yədək. Telefon 5-30. Adres: Parapet, Kolyubakinski küçədə nömrə 39. “Azərbaycan” qəzetə idarəsinin yanında.
*237*

**Doktor Əliheydər Allahverdiyev**
Daxili naxoşları qəbul edir səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 6-ya kimi. İçərişəhərdə bağın qarşısında Minaretski küçə, ev nömrə 1. Telefon nömrə 36-91. Б. Минаретская ул., д. N 1. Кв. N 236. Телеф. 36-91.
*236*

**Həkim Arşak Ayrapetoviç Akopyans**
Əsəbi və daxiliyyə naxoşluğuna mübtəla olanları axşam saat 3-dən 6-ya kimi qəbul etməyə başlamışdır.
Ünvan: Balaxanski caddədə nömrə 10, İstanislavski caddənin küncündən 3-üncü ev. Telefon 55-26.
Saat 3-ə kimi 32-77 nömrəli telefon ilə danışmaq mümkündür. (16-ncı xəstəxana).
*256*

**O. A. Salmanın**
**Diş kabinəsi və süni diş müalicəxanası**
Dişlərə və ağza müalicə edir, ağrısız çıxarır, doldurur, qızıl və kauçuk üzərində süni dişlər qayırır və qızıldan qapaqlar qayırır.
Qəbul edir hər gün saat 9-dan 2-yə kimi, 4-dən 7-yə kimi. Naberejni caddədə Dombrovski pereulokda [döngədə] Mehdiyevin 7 nömrəli evində. Telefon nömrə 30-02.
*253*

**Berlin Darülfünununun həkimi**
**L. Melkumyans**
Əmrazi-tənasüliyyə [cinsi xəstəliklər] və dəri naxoşlarını qəbul edir.
Qan damarlarına “606” və “916” dəvalarını istemal [tətbiq] edir. Hər gün saat 2-4-ə kimi.
Ünvan Birjevoy caddədə Malakan bağçası qarşısında həkim Temirxanyanın müalicəxanasında. Telefon nömrələri 29-85 və 32-77.
*255*

**Diş müalicəxanası**
**S.M. İtkinin süni diş laboratoriyası**
Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan 1-ə və 4-dən 6-ya qədər qəbul olunurlar.
Ünvan: Bolşoy Marskoy küçədə 37 nömrəli ev, telefon 06-25.
*208*

**Həkim S. L. Şklovskaya**
Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan 1-ə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.
*209*

**Diş həkimi Melçarski**
Torqovaya soqaqda Muxtarovun xanəsində nömrə 15. Dişlərə tədavi edir, doldurur, ağrısız ixrac edir. Gözəl altun və sairə dişlər emal edir. Xəstələri qəbul edir: sübh saat 9-2-yədək.
*210*

**Arvad diş həkimi Z. A. Şexter xanım**
Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.
Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.
*215*

**Arvad diş həkimi Moiseyeva-Levin**
Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.
Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır.
Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.
*216*

**Doktor Kamilə xanım İsmayılov**
Uşaq və əmrazı-daxiliyyəsi [daxili xəstəlikləri] olan naxoşları hər gün sabah saat 10-dan 2-yədək və axşam 4-7 qəbul edir.
Adres: Armyanski 16. Telefon 56-89.
*235*



**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**


## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Petrovskun işğalı***

“Axşama doğru düşmənin 13 gəmisi Sulak istiqamətinə çəkilmişdir.”: Qəzetdə “Sulak” yerinə “Suruk” getmişdir.

“7.11.34”: Burada il rumi təqvimlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 7 noyabr 1918-ci ilə uyğundur.

***Türkiyə və Azərbaycan***

“Əbdüllətif”: Bu imza Əbdüllətif Əfəndizadəyə məxsusdur.

***Vətənimizin iki simayi-möhtərəmi***

“«Həyat»ı ilə Azərbaycan türklərini diriltmək və «İrşad»ı ilə onlara rahi-necatı [xilas yolunu] nişan vermək yolunda...”: Əhməd bəy Ağaoğlunun redaktoru olduğu “Həyat” və “İrşad” qəzetləri nəzərdə tutulur.

“…ümum Qafqaz ictimaında [yığıncağında] canişin hüzurunda söylədiyi bəliğ nitqlərlə isbat etdi.”: Qafqaz canişini Vorontsov-Daşkovun erməni-müsəlman qırğınlarına son vermək məqsədi ilə 1906-cı ilin fevral ayında Tiflisdə təşkil etdiyi sülh konfransı nəzərdə tutulur.

“Tənəzzülümüzə qarşı «Tərəqqi»si ilə müdafiə edərək...”: Əhməd bəy Ağaoğlunun naşiri və redaktoru olduğu “Tərəqqi” qəzeti nəzərdə tutulur.

“…Məhəmmədəli şahın yaxıcı, yıxıcı keyfəmayəşası...”: Qacarlar sülaləsindən olan İran şahı Məhəmmədəli şah Qacar nəzərdə tutulur.

“…«Açıq söz» bayrağını qaldıraraq...”: Məhəmməd Əmin Rəsulzadə tərəfindən nəşr edilən “Açıq söz” qəzeti nəzərdə tutulur.

“X.”: Bu imza Xəlil İbrahimə məxsusdur.

***Əhməd bəy Ağayev ilə müsahibə***

“…İzmir valisi Rəhmi bəyin...”: Burada söhbət 1913-1917-ci illərdə Aydın (İzmir) valisi olan Mustafa Rəhmi Arslandan gedir. “Rəhmi bəy” yerinə qəzetdə səhvən “Rəhim bəy” getmişdir.

***Alman sosial-demokratlarının müraciətnaməsi***

“«...» qəzetəsində...”: qəzetin adı boş buraxılmışdır.

***Cüməgünkü mühüm xəbərlər***

“Mühafizə naçalniki və şöbə komandanı Didebuladze Hərbiyyə naziri ilə...”: O dövrdə Gürcüstanın Hərbi naziri Qriqol Giorqadze idi.

“Təşrini-saninin 4-ündə ləvazimat vaqonlara yerləşdirilmişdir.”: Qəzetdə “təşrini-saninin” [noyabrın] yerinə “təşrini-əvvəlin” [oktyabrın] getmişdir.

“Odessa general-qubernatorunun…”: Odessa general-qubernatoru vəzifəsini 1 iyun - 9 noyabr 1918 tarixləri arasında Eduard fon Böltz, 9 noyabr – 18 dekabr 1918 tarixləri arasında Georgi Raux tutmuşdur.

***Şayiələr***

“Cavad”: Bu imza Əhməd Cavada məxsusdur.

***Bakı xəbərləri***

“Ərzaq İdarəsi bu odunları Bakıya gətirməkdən ötrü Dəmiryol Nəzarətin...”: Nəqliyyat və Rabitə Nazirliyi nəzərdə tutulmuşdur.

# "Düşmənə qardaş yumruğu"

## Son hərbi təlimlər Türkiyə mediasının əsas gündəm mövzusu oldu

**Azərbaycan və Türkiyə dostluq və qardaşlıq münasibətlərindən irəli gələrək bölgədə və dünyada gedən proseslərə münasibətdə həmişə eyni mövqe sərgiləyib, ortaq maraqlardan çıxış ediblər. Dünya siyasi düzəninin indiki mürəkkəb şəraitində isə hər iki ölkənin bölgədə və dünyada gedən proseslərə vahid prizmadan yanaşmaları, xüsusən ərazi bütövlüyü kimi həssas məsələlərdə bir-birilərinin maraqlarını müdafiə etmələri daha mühüm əhəmiyyət kəsb edir.**

Türkiyə ilə Azərbaycanın dostluğunun sarsılmazlığı bu günlərdə cərəyan edən proseslər fonunda bir daha öz təsdiqini tapdı. Belə ki, iki ölkənin birgə "Qardaş yumruğu" adlı növbəti hərbi təlimləri keçirilib. Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərinin şəxsi heyəti, döyüş və xüsusi təyinatlı mühəndis-istehkam texnikası, həmçinin hərbi aviasiya vasitələrinin cəlb olunması ilə keçirilən təlim Bakını, eləcə də Astara, Cəbrayıl və İmişli rayonlarını əhatə edib.

Təlim Türkiyədə bir neçə yüz minlik tirajı olan qəzetlərin manşet mövzusu olub. Aparıcı televiziya şirkətləri, internet portalları da bu mövzu ətrafında materiallar təqdim ediblər.

"Hürriyet" qəzeti "İki dövlət, tək təlim" adlı xəbəri manşetdən təqdim edib. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın təlimlə bağlı fikirlərinin yer aldığı xəbərdə bildirilir ki, bütün bunlar Azərbaycan-Türkiyə birliyinin sarsılmaz, əbədi olduğunu göstərir. Qeyd olunub ki, dünyada təhdid və təhlükələrin artdığı bir zamanda ölkələrimizin və millətimizin təhlükəsizliyini yalnız güclü orduya sahib olmaqla təmin etmək mümkündür. Birgə təlimlər də qarşılıqlı təcrübə mübadiləsi və peşəkarlığın artırılmasında mühüm əhəmiyyətə malikdir.

"Sabah" qəzeti "Dostlara güc, düşmənlərə qorxu verdiniz" başlıqlı məqaləsində yazıb ki, təlimlərdə verilən mesajlar iki ölkə arasında qardaşlığın sarsılmaz və əbədi olduğunu növbəti dəfə sübut etdi. Azərbaycanla Türkiyənin bundan sonra da daim bir-birinin yanında olacağı növbəti dəfə göstərildi: "Dostumuzu birlikdə dost, düşmənimizi də birlikdə düşmən görürük".

"Akşam" qəzetinin "Düşmənə qardaş yumruğu" başlıqlı xəbərində bildirilib ki, soyuq və qarlı havada keçirilən "Qardaş yumruğu" təlimində Türkiyə və Azərbaycan Ordusunun hərbçiləri tərəfindən hədəflər dəqiqliklə vurulub. Türkiyənin və Azərbaycanın müdafiə nazirləri hədəflərə atılan atəşləri diqqətlə izləyiblər. Vurğulanıb ki, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı, strateji tərəfdaşlığı bundan sonra da inkişaf edəcək və möhkəmlənəcək.

"Milliyet" qəzeti "İki dövlət, tək qüvvə" başlıqlı xəbərini manşetə çıxardıb. Bildirilir ki, Azərbaycanla Türkiyə aralarında münasibətlərin nə dərəcədə yüksək səviyyədə qurulduğunu, tərəflərin mühüm əhəmiyyət kəsb edən maraqlar ətrafında hər zaman bir-birini müdafiə etməyə hazır olduqlarını həmişə göstərib. Vurğulanıb ki, hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, Azərbaycan-Türkiyə birgə təlimi keçirilib. Təlimdə müasir döyüş üsullarından istifadə etməklə artilleriya, aviasiya və digər qoşun növlərinin hərbi əməliyyatlarda tətbiqi, onların qarşılıqlı əlaqədə fəaliyyətinin təşkili, çaylar üzərindən keçid açmaq məqsədilə ponton körpülərin salınması, şərti düşmənin dərinliyinə desant endirilməsi üzrə müxtəlif tapşırıqlar da icra edilib.

"Türkiyə" qəzetinin "O dəhliz açılacaq" başlıqlı xəbərində yazılıb ki, 44 günlük müharibədən sonra Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan Ordusunda Türkiyə Silahlı Qüvvələrinə uyğun islahatlar həyata keçirilir. Hər iki ölkənin müdafiə nazirlərinin çıxışlarına geniş yer ayrılan məqalədə qeyd olunub ki, 44 günlük Vətən müharibəsindəki qələbə qardaşlığın, sədaqətin növbəti sübutu oldu. Müəllif onu da qeyd edib ki, Türkiyə-Azərbaycan münasibətləri həm iki ölkə, həm də region üçün çox önəmli rol oynayır.

Qəzetlərdən "Türkgün"ün "Azərbaycana qarşı təhdidi özümüzə edilmiş sayırıq", "Milat"ın "Qardaş yumruğu", "Diriliş postası"nın "Qardaş yumruğu hazır vəziyyətdə", "Takvim"in "Qardaş yumruğu düşmənin təpəsinə vurulacaq", televiziya kanallarından "Haber Global"ın "İrana qardaş yumruğu mesajı", "NTV" kanalının "Əliyev və Ərdoğan əsgərlərə səsləndi", "Trthaber"in "Erdoğan "Qardaş yumruğu" təliminə qatılanları təbrik etdi", "Habertürk"ün "Tək güc, tək yumruq olmağı bilirik", informasiya agentliklərindən "Anadolu Xəbər Agentliyi"nin "Azərbaycan və Türkiyə liderləri əsgərlərə müraciət ünvanladı" , "Ulusal"ın "Qardaş yumruğu əməliyyatı","Beyaz gazete.com.tr"nin "Azərbaycan ilə "Qardaş yumruğu" əməliyyatı", "Kanal16haber.com"un "Qardaş yumruğu dünyaya lazım olan mesajı verdi", "İdrak34.com"un "Qardaş yumruğunda nəfəs kəsən anlar", "Heryerhaber.com"un "Qardaş yumruğu təlimində hədəf" və digər bu kimi başlıqlı xəbərlərdə bildirilib ki, hərbi təlim növbəti dəfə Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun və strateji müttəfiqliyinin sarsılmaz və əbədi olduğunu sübut etdi.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*




























































# Reqraqi komandası ilə qürur duyur

**"Mərakeş xalqını daha çox uğurlarla sevindirmək istəyirik. Heyətimizlə qürur duyuruq. Bu bizi daha yaxşı olmağa vadar edir. Oyunçularım möhtəşəm iş gördü. Dünyanın ən yaxşı komandalarından birinə, turnirin bəlkə də ən yaxşı millisinə qarşı əla mübarizə apardıq və qələbə qazandıq".**



Bu sözləri Mərakeş millisinin baş məşqçisi Valid Reqraqi "DÇ-2022"nin 1/8 finalında İspaniyaya qalib gəldikləri oyundan (əsas və əlavə vaxt - 0:0, penaltilər seriyası - 3:0) sonra deyib.

O bildirib ki, oyunçuları matçda çox enerji itiriblər, İspaniya onları topa görə çox yorub: "Amma dünyanın ən yaxşı qapıçılarından birinə sahibik. Daha da irəli getmək üçün mübarizəyə davam edəcəyik. Səylərimizin qarşılığını meydanda görmək gözəldir. Bu yola çıxarkən iddialı olmağımızın vacibliyini söyləmişdim. Futbolçular buna inandılar. Çünki bütün oyunçular vətən üçün ölməyə hazırdırlar. Bu qələbəni Mərakeş xalqına həsr edirəm".

Qeyd edək ki, Mərakeş 1/4 finalda dekabrın 10-u Portuqaliya ilə qarşılaşacaq. Görüş Bakı vaxtı ilə saat 19:00-da başlayacaq.



# 4-cü het-trik

**Portuqaliya millisinin futbolçusu Qonsalu Ramuş 1/8 finalda İsveçrə ilə matçda het-trik edib. Qol.az xəbər verir ki, o, baş məşqçisi Fernandu Santuşun qərarı ilə bu matçda ilk dəfə start heyətdə meydana daxil olub.**

"Benfika"nın 20 yaşlı hücumçusu əsas heyətdə komandanın kapitanı Kriştiano Ronaldunu əvəzləyib. Santuşun bu addımı uğurlu alınıb və oyunçu İsveçrə ilə görüşdə 3 qol vurub.

Bununla da, Qonsalu Ramuş Portuqaliya millisinin heyətində Dünya çempionatında het-trik edən 4-cü futbolçu olub.

Qeyd edək ki, 2018-ci ildə Kriştiano Ronaldu İspaniya (3:3), 2002-ci ildə Pedro Pauleta Polşa (4:0), 1966-cı ildə Eysebio KXDR (5:3) ilə görüşdə üç qol vurub.

# "Messi bütün Argentinadır"



**Braziliya millisinin futbolçusu Dani Alveş Argentina millisinin kapitanı Lionel Messinin mundialdakı çıxışı barədə danışıb. 39 yaşlı müdafiəçi mundialda 3 qola imza atan 35 yaşlı hücumçunu tərifləyib:**

"Hazırda Messi bütün Argentinadır. Hər şey onun əlindən keçir, top daim onun ayağındadır. Düşünürəm ki, Messi əla formadadır. O, şübhəsiz ki, Dünya çempionatında axtarılması lazım olan oyunçulardan biridir. Amma hələlik Argentina ilə mümkün yarımfinal haqda düşünməməliyik. Əvvəlcə 1/4 finalda Xorvatiyaya qarşı oynamalı olacağıq".

Qeyd edək ki, Messi "DÇ-2022"nin 4 oyununda 3 qol vurub və 1 qolun ötürməsini verib.

# Murat Yakın üzr istədi



İsveçrə yığmasının baş məşqçisi Murat Yakın 1/8 final mərhələsində Portuqaliyaya uduzaraq mübarizəni dayandırmaları barədə danışıb. Mütəxəssis 1:6 hesablı məğlubiyyətə görə üzr istəyib:

"Bu gün uğur qazana bilmədik. Amma komandanı qınaya bilmərəm. Oyunçularımız meydanda güclərinin 100 faizini ortaya qoydular. Konkret oyun planımız var idi. Amma biz bunu yerinə yetirə bilmədik. Etiraf etmək lazımdır ki, rəqib daha yaxşı oynadı. Bu nəticəyə görə üzr istəyirəm. Təəssüf ki, rəqib bütün səhvlərimizdən parlaq şəkildə istifadə etdi. Komanda bu səhvlərin öhdəsindən gəlməlidir. Əgər düzgün nəticə çıxara bilsək, o zaman daha da güclənəcəyik".

# Mbappe ingilislərlə oyunu buraxa bilər

**Fransa millisinin hücumçusu Kilian Mbappe "DÇ-2022"nin 1/4 finalında İngiltərə ilə keçiriləcək oyununu buraxa bilər. O, topuğundakı ağrılara görə komandasının məşqlərində iştirak etməyib.**



Komandanın liderlərindən forvard idman zalında bərpa prosesi keçir. Onun İngiltərə ilə qarşılaşmada meydana çıxıb-çıxmayacağı bəlli deyil.

Dekabrın 10-da keçiriləcək İngiltərə - Fransa görüşü Bakı vaxtı ilə saat 23:00-da başlayacaq. Qeyd edək ki, Mbappe bu mundialda 4 oyuna 5 qol vurub.

# Santuşdan etiraflar



Portuqaliya millisinin baş məşqçisi Fernando Santuş 1/8 finalda İsveçrəyə qalib gələrək 1/4 finala yüksəlmələrini (6:1) şərh edib. Mütəxəssis oyunun əla keçdiyini deyib:

"Yaxşı çıxış etdik. Əla oyun oldu. Futbolçuları təbrik edirəm. Onlar özlərini yaxşı tərəfdən göstərdilər, amma indi göydən yerə enməli olacaqlar. Hər şey əla idi. Amma 3 gün sonra növbəti matçımız var. Əvəzetmələr bir oyun strategiyası idi, bütün oyunçular fərqlidir. Mən həmçinin Dalotu, Rafael Qerreyrunu meydana buraxdım. Halbuki, Kanselo da heyrətamiz oyunçudur".

Fernando Santuş start heyətdə yer vermədiyi millinin kapitanı Kriştiano Ronaldu ilə münasibətləri barədə də danışıb: "Mənim Ronaldu ilə problemim yoxdur. Biz uzun illərdir dostuq. Oyunçular bəzi qərarları verir, bu, heç bir şəkildə bizə təsir etmir. Artıq dedim ki, bu məsələ nəhayət həll olundu və o, böyük kapitan kimi gözəl nümunə göstərdi".

Santuş 1/4 finalda Mərakeşlə keçirəcəkləri matç barədə isə bunları deyib: "Mərakeşə gəlincə, İspaniyanı məğlub etdilər. 2018-ci il Dünya çempionatında bizə çoxlu problem yaratdıqlarını xatırlayıram".

# Uruqvay millisinin başı dərddədir

FİFA Uruqvay millisinin 4 futbolçusuna qarşı ittiham irəli sürüb. Bunlar Xose Ximenez, Fernando Muslera, Edinson Kavani və Dieqo Qodindir. Onlar nalayiq davranış sərgiləməkdə ittiham olunurlar. FİFA artıq sözügedən şəxslərə qarşı intizam işi açıb.



Uruqvay millisi "DÇ-2022"nin qrup mərhələsinin 3-cü turunda Qana ilə görüşdə (2:0) qələbə qazansa da, 1/8 finala vəsiqə əldə edə bilməyib. Bundan sonra Uruqvay yığmasının futbolçuları qalmaqal yaradıblar. Müdafiəçisi Xose Ximenez hakimləri söyüb. Uruqvaylı futbolçular Qananın qapısına iki penalti təyin etməyən Daniel Sibertin başçılıq etdiyi hakimlər briqadasının yanına gediblər. Ximenez Sibertlə mübahisə etmək istəyərkən səhvən FİFA direktorlarından birinə dirsəklə vurub. Bunun üçün onun ən azı 15 oyunluq cəzalandırıla biləcəyi qeyd olunub.

FİFA Xose Ximenez, VAR monitorunu aşıran Edinson Kavani, Fernando Muslera və Dieqo Qodini nalayiq və təhqiredici davranışda və ədalətli oyun prinsiplərini pozmaqda ittiham edib.

Bundan əlavə, Uruqvay Futbol Assosiasiyası (AUF) ayrı-seçkilikdə ittiham olunur.

# Titedən dəyərləndirmələr

**Braziliya yığmasının baş məşqçisi Tite 1/8 finalda Cənubi Koreyaya qalib gələrək (4:1) 1/4 finala adlamalarını şərh edib. Mütəxəssis komandasının çıxışı ilə bağlı bunları deyib:**

"Balans bir anlıq da pozulursa, itirmək ehtimalı artır. Sizin siyahınızda belə oyunçular olanda meydanda düzgün mövqe tutmaq, topsuz oynamağı bacarmaq və arxa xətti dəstəkləmək də vacib olur. Məsələn, bizim komandamızda iki cinah müdafiəçisinin daha yaradıcı rolu var. Bu, balanslaşdırmağa çalışdığımız canlı mexanizmdir".

61 yaşlı mütəxəssis həmçinin Neymarın zədədən sonra milliyə qayıtmasından da danışıb. Tite bildirib: "O, komandanın lideridir. Neymarı həmişə meydanda axtarırlar. Oyunçularımızın hər birinin öz heyrətamiz bacarıqları var. Neymar hər kəsin oyununu gücləndirə bilən mərkəzdir".



Tite Cənubi Koreya ilə görüşün 29-cu dəqiqəsində Rişarlisonun vurduğu qolu ehtiyatdakı futbolçuları ilə birgə qeyd edib. Onlar birlikdə rəqs ediblər. Tite bu haqda deyib: "Bunu hörmətsizlik kimi qəbul edən pis niyyətli insanlar var. Qol sevincindən, nəticədən, ümumilikdə oyundan başqa nəyisə şərh etmək istəmədim. Amma rəqibə və ya çox hörmət etdiyim Paul Bentoya qarşı hörmətsizlik yoxdur".

Qeyd edək ki, Braziliya sabah 1/4 finalda Xorvatiya ilə qarşılaşacaq.

# Yassin Bonu penaltilər barədə danışdı

"Penaltinin nə olduğunu bilirsiniz - bir az intuisiya və bir az şans".

Bunu Mərakeş millisinin qapıçısı Yassin Bonu deyib. "Sevilya"nın qapıçısı Dünya çempionatının 1/8 finalında İspaniya millisinə qalib gələrək turnirin 1/4 finalına yüksəlmələrini şərh edib: "Biz qalib gəldik, ən vacibi budur. Bütün komandaya şlyapa çıxarıram, əla iş gördülər. Bu inanılmaz idi.

Topa yaxşı sahib olan İspaniyaya qarşı 120 dəqiqə konsentrasiyanı qoruyub saxlamaq asan məsələ deyil. Bunu dərk etmək belə çətindir. Çalışacağıq ki, kənar informasiyalardan qaçaq, diqqətimizi özümüzə, işimizə və bərpamıza yönəldək. Növbəti rəqiblə məmnuniyyətlə və qələbəyə ac qarşılaşacağıq".





# Serxio Ramos sükutu pozdu

**PSJ-nin ispan futbolçusu Serxio Ramos milli komandasının 1/8 finalda Mərakeşə uduzaraq mübarizəni dayandırmasına münasibət bildirib.**

Uzun müddət millinin kapitanlıq sarğısını daşıyan 36 yaşlı müdafiəçi sosial şəbəkə hesabındakı paylaşımında komandanın yaxşı gələcəyi olacağını yazıb: "Bu gün bayrağımızla, ölkəmizlə və oyunçularımızla hər zamankından daha çox fəxr edirəm. İspaniya uduzmur, İspaniya öyrənir. İspaniya, yıxılır, büdrəyir, amma qalxır və davam edir. Biz geri qayıdacağıq və güclənəcəyik. İrəli, İspaniya!"

Xatırladaq ki, İspaniya Mərakeşə penaltilərlə (0:3) uduzub. Ramosun İspaniya millisinin Dünya çempionatı üçün iştirak ərizəsinə daxil edilmədiyi üçün azarkeşlər və futbol mütəxəssisləri yığmanın baş məşqçisi Luis Enrikeni xeyli tənqid etmişdi.

# "Penaltilər bizi ruhdan saldı"

**"Futbol yaxşı idman növüdür, lakin elə bir xüsusiyyəti var ki, komanda hücum etmədən qalib gələ bilər. Biz matçda üstün tərəf idik. 11 zərbəmiz oldu, amma onlardan biri hədəfə dəydi. Penaltilər bizi ruhdan saldı. Amma komanda ilə fəxr edirəm".**

Bu sözləri İspaniya millisinin baş məşqçisi Luis Enrike 1/8 finalda Mərakeşə uduzduqları oyundan bəhs edərkən deyib.

Mütəxəssis İspaniya millisinin azarkeşlərindən üzr istəyib: "Çünki onlar bizi çox yaxşı dəstəklədilər, bizim üçün narahat oldular. Bizi bağışlasınlar. Biz bütün gücümüzlə oynadıq. İndi yalnız Mərakeşi təbrik etmək qalır".

Enrike deyib ki, hazırda gələcək haqqında danışmaq üçün ən yaxşı vaxt deyil: "İndi mən evə getmək istəyirəm və gələn həftə bu məsələləri müzakirə edəcəyik".



*Hazırladı: Elçin CƏFƏROV, "Azərbaycan"*

# İranda azərbaycanlıya ölüm hökmü kəsildi

## Soydaşlarımız Tehran rejiminin amansız repressiyasının əsas hədəfidir

**İran hakimiyyəti hökumət əleyhinə etirazları xarici düşmənlərin təhrik etdiyi "iğtişaşlar" kimi göstərməyə çalışır. Son məlumata görə, ümummilli etirazlar zamanı "Bəsic" yarımhərbi qruplaşmasının üzvü Ruhullah Əcəmiyanı qətlə yetirən 5 nəfər edam cəzasına məhkum edilib. Bu barədə məhkəmə hakimiyyətinin mətbuat katibi Məsud Setayeşi məlumat verib. Daha 11 nəfər, o cümlədən üç uşaq uzun müddətə azadlıqdan məhrum edilib.**




Ədliyyə Nazirliyinin "Mizan Online" saytı Əcəmiyanın noyabrın 3-də Tehranın qərbində yerləşən Kərəc şəhərində ölməsi ilə bağlı 15 nəfərin ittiham olunduğunu bildirib.

Prokurorların dediyinə əsasən, 27 yaşlı Əcəmiyan etirazçı Hədis Nəcəfinin (azərbaycanlı şairə sentyabrın 23-də qətlə yetirilib-red.) ölümünün 40-cı gününü qeyd etmək üçün toplaşan bir qrup nümayişçi tərəfindən lüt soyundurularaq öldürülüb.

"Bəsic" formal olaraq İslam İnqilabı Keşikçiləri Korpusunun bir hissəsidir, lakin praktikada bəzən yerli hakimiyyət orqanları tərəfindən idarə olunur. Təşkilat həm də sosial yardım göstərir, dini mərasimlər təşkil edir, siyasi əhvali-ruhiyyəyə və əxlaqa nəzarət edir.

Dövlət mediasına görə, İslam İnqilabı Keşikçiləri Korpusu çərşənbə axşamı "xarici agentlərlə əlaqədə olmaqda" və "təxribat fəaliyyətləri planlaşdırmaqda" ittiham olunan 12 nəfəri həbs edib.

İİKK-nin bəyanatına əsasən "Almaniya və Hollandiyada yaşayan antiinqilabçı agentlərin rəhbərlik etdiyi bu şəbəkənin üzvləri hərbi silahlar almaq və milli təhlükəsizliyə zidd hərəkətlər etməklə təxribatçı fəaliyyətlər həyata keçirmək niyyətində olublar".

Bəyanatda bu şəxslərin milliyyəti göstərilmir və digər təfərrüatlar açıqlanmır.

İran ordusunun adı açıqlanmayan generalı ay yarımdır davam edən iğtişaşlarda təhlükəsizlik qüvvələrinin onlarla üzvü də daxil olmaqla 300-dən çox insanın həlak olduğunu bildirib.

Məlumata görə, 40 nəfəri əcnəbi və tanınmış aktyorlar, jurnalistlər və vəkillər də daxil olmaqla, yüzlərlə insan öldürülüb, minlərlə insan həbs edilib.

İranda mövcud rejimə qarşı xalqın etirazına ordudan da dəstək verilib. Bununla bağlı görüntülər sosial şəbəkələrdə yayılıb və geniş müzakirələrə səbəb olub.

Belə ki, İran ordusunun əsgəri vərəqəyə "mən onların rejiminin hərbi geyimini daşımağa məcburam, lakin sizi dəstəkləyirəm" sözlərini yazaraq etirazçılara dəstəyini ifadə edib.

İrandan daxil olan daha bir məlumatda bildirilir ki, azərbaycanlı ər və arvada ağır cəza verilib. Belə ki, noyabrın 4-də həbs edilən həkim Həmid Qarahəsənli etiraz aksiyalarında "Bəsic" qüvvələrinin üzvünün öldürülməsi ittihamı ilə edam cəzasına məhkum edilib. Onun həyat yoldaşı həkim-kardioloq Fərzanə Qarahəsənliyə isə 25 il həbs cəzası verilib.

Qeyd edək ki, azərbaycanlı cütlük sentyabrın 23-də Kərəcdə keçirilən aksiyalar zamanı hökumət qüvvələri tərəfindən güllələnərək öldürülən azərbaycanlı şairə Hədis Nəcəfinin 40 mərasiminə qatıldıqlarına görə tutulub, sonra onlara qarşı ağır ittihamlar irəli sürülüb.

Fransada yaşayan Cənubi Azərbaycandan olan tanınmış fotoqraf Rza Deqqəti instaqram səhifəsində yazıb ki, İran xalqı bu zalım rejimə qalib gələcək: "... Xalqın bir istəyi var, terror rejiminə son qoymaq. Xalqın qarşısında - İran xalqı aclıqdan ölərkən pul əldə etmək və cinayətlərinə bəraət qazandırmaq üçün ideologiyadan və dindən istifadə edən terrorçu liderləri, mafioz qrupları, girov götürənləri və narkotik alverçilərini müdafiə etmək üçün silahlanmış, beyinləri yuyulmuş insanlardan ibarət milis dayanır. Onlar bir kult kimi fəaliyyət göstərirlər, o kult ki, 1979-cu ildə "New York Times" tərəfindən "Qandiyə bənzər fiqur" kimi göstərilən bu adamla başladı və eyni media orqanı bir neçə gün əvvəl saxta xəbərlə rejimin təbliğat ortağına çevrilərək yenidən eyni səhvə yol verdi. Birləşən xalq bu zalım rejimə qalib gələcək".

*R.HİLALOĞLU,*
*"Azərbaycan"*

# Kommunal sferada ilk dəfə "Azərişıq" ASC 2023-2027-ci illəri əhatə edən Strateji İnkişaf Planını təqdim etdi

**Dekabrın 7-də Bakı Biznes Mərkəzində "Azərişıq" ASC-nin 2023-2027-ci illəri əhatə edən Strateji İnkişaf Planının təqdimatı keçirildi. Təqdimatı giriş sözü ilə açan "Azərişıq" ASC sədrinin müavini Ramil Yusifov iştirakçıları salamlayaraq tədbir haqda məlumat verdi.**



Bildirildi ki, sənədin məqsədi ölkənin artan enerji tələbatına və sosial ehtiyaclarına cavab verən strateji planının əsasında növbəti dövrlərdə işlərin icrasıdır. Eyni zamanda bu sənəd enerji təchizatı sistemi üzrə etibarlılığının artırılmasına, elektrik enerjisi itkilərinin azadılmasına, müasir idarəçilik üzrə alətlərin təkmilləşdirilməsinə xidmət edəcəkdir. Sonra R.Yusifov sözü beynəlxalq məsləhətçi şirkətin eksperti Helmut Sandmana verdi.

H. Sandman Strateji İnkişaf Planına Liberal Bazar Modeli, elektrik enerjisinə tələbata və itkilərin azaldılmasına dair qiymətləndirmələr və proqnozlar, enerji itkiləri, yenidənqurma və investisiya tələbləri, $CO_2$ (Karbon-dioksid) emissiyasının azaldıması və enerji səmərəliliyinin təşviqi, maliyyə resurslarının mobilizasiyası və maliyyələşdirmə strategiyası, iqtisadi-maliyyə qiymətləndirməsi və tarif/marja təsirləri, rəqəmsallaşdırılma və müasirləşdirilmə, kadr potensialının inkişaf strategiyası və fəaliyyət planı daxil edildiyi haqda ətraflı məlumat verdi.

"Azərişıq" ASC-nin Strateji İnkişaf Planında istehlakçıların fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchizatının təmin edilməsi üçün paylayıcı şəbəkə infrastrukturlarının tamamilə yenidən qurulmasının tələb olunduğu yerlərdə innovativ sistemlərin qurulması, müasir texnoloji həllər və "yaşıl enerji" texnologiyalarının tətbiqinin daha məqsədəuyğun olması qeyd olunur.

Tədbir müxtəlif qurum və şirkətlərin nümayəndələrini maraqlandıran sualların müzakirəsi ilə başa çatıb.

*"Azərbaycan"*


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən təhsil müəssisələri üçün kompüter və noutbukların satın alınması məqsədilə 26.09.2022-ci ildə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən "Bestcomp Group" QSC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən ümumtəhsil müəssisələrinə "Maşın və avadanlıqlar" xərc maddəsi üzrə bir sıra malların satın alınması məqsədilə 15.11.2022-ci ildə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən "Simplex" QSC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

Rəsmiyyə Hüseyn qızı Qələndərovanın (Vəliyeva) adına 07.07.1990-cı ildə Bakı şəhəri, 252 nömrəli məktəb tərəfindən verilmiş orta təhsil haqqında attestat (A № 067162) itdiyi üçün etibarsız sayılır.

Elxan Tahir oğlu Hüseynova məxsus hərbi bilet və 22.05.2001-ci il tarixli Qarabağ müharibəsi veteranı kitabçası (0V/V 061510) itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


# Rusiyanın hərbi arsenalı zəifləyir

## Ukraynaya qarşı istifadə olunan İran PUA-ları şaxtaya tab gətirmir

**Moskvanın Ukraynada keçirdiyi "xüsusi hərbi əməliyyatı" 288 gündür davam edir. Dünən Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı müharibə ilə bağlı son vəziyyəti açıqlayıb. Bildirilir ki, dekabrın 6-dan 7-nə keçən gecə, üç həftəlik fasilədən sonra işğalçı qüvvələr "Şahed-136/131" kamikadze pilotsuz təyyarələri ilə yenidən Ukraynaya hücum ediblər.**






Ukrayna Silahlı Qüvvələrinin Hərbi Hava Qüvvələri komandanlığının məlumatına görə, ümumilikdə cənub-şərq istiqamətindən göndərilən 14 ədəd uçan döyüş aparatı aşkar edilib.

Hərbi Hava Qüvvələrinin "Vostok" hava komandanlığının hava hücumundan müdafiə bölmələri 11 dronu məhv edib, şərq istiqamətində daha 3 pilotsuz uçan aparat Quru Qoşunlarının hava hücumundan müdafiə sistemləri tərəfindən vurulub. Bundan başqa, bir "Orlan-10" tipli PUA və düşmənin daha 2 pilotsuz təyyarəsi məhv edilib.

Eyni zamanda Müdafiə Qüvvələrinin aviasiyası son sutka ərzində şəxsi heyətin, silahların və hərbi texnikanın cəmləşdiyi ərazilərə 22 zərbə, habelə Rusiya zenit-raket komplekslərinin mövqelərinə 4 zərbə endirib.

UNIAN Agentliyinin məlumatına əsasən, Rusiya Ukrayna şəhərlərinə və kritik infrastruktura zərbələr endirmək üçün İranda istehsal olunmuş "Şahed-136" pilotsuz təyyarələrindən fəal şəkildə istifadə edir.

Qeyd olunub ki, noyabrın 17-dən bəri Rusiya hərbçiləri İrana məxsus kamikadze pilotsuz təyyarələrdən istifadə etməmişdilər.

Ukrayna Silahlı Qüvvələrinin Strateji Kommunikasiyalar üzrə Birləşmiş Qüvvələr komandanlığının mətbuat katibi Yevgeni Silkin qeyd edib ki, İranın kamikadze pilotsuz təyyarələri plastik və şaxtaya davamlı olmayan digər materiallardan hazırlanır. Buna görə də ruslar Ukraynaya qarşı "Şahed-136" pilotsuz uçan aparatlarından istifadə etməyi dayandırmışdılar, çünki İran PUA-ları soyuğa tab gətirə bilmir.

KİV-in məlumatına görə, Moskva və Tehran Rusiyada dron istehsalı ilə bağlı razılığa gəliblər.

Ötən ay Ukrayna Silahlı Qüvvələrinin Hərbi Hava Qüvvələri komandanlığının sözçüsü Yuri İqnat Rusiya Federasiyasının Ukrayna ərazisinə indiyədək 400-dən çox İran kamikadze pilotsuz uçan aparatını buraxdığını bildirib. Dronların əksəriyyəti məhv edilib.

Bu yaxınlarda Cənub Təhlükəsizlik və Müdafiə Qüvvələrinin Birgə Əlaqələndirici Mətbuat Mərkəzinin rəhbəri Natalya Qumenyuk qeyd edib ki, ruslar tərəfindən İrana məxsus "Şahed-136" kamikadze pilotsuz uçan aparatlarından istifadənin azalması həm ehtiyatların bitməsinin, həm də onların sonrakı istifadəsi ilə bağlı taktikanın dəyişdirilməsindən xəbər verə bilər.

İran istehsalı olan "Şahed-136" və digər dronların Rusiya tərəfindən istifadə olunması ilə bağlı Ukrayna rəsmiləri müxtəlif vaxtlarda İranı sərt tənqid ediblər.

Prezident ofisinin rəhbərinin müşaviri Mixaylo Podolyak bir müddət əvvəl bildirib ki, "İran hələ də sivilizasiyaya necə yüksələcəyini anlamayıb. İran texnoloji cəhətdən son dərəcə geridə qalmış Rusiyaya müasir pilotsuz təyyarələr ötürməklə ukraynalıların öldürülməsinə dəstək vermək qərarına gəlib".

Xatırladaq ki, bundan sonra Kiyev İran səfirini ölkədən qovub.

Mixaylo Podolyak hesab edir ki, sanksiyalar və embarqo Tehranı cəzalandırmaq üçün yetərli olmayacaq. Onun fikrincə, İranın Ukraynada genişmiqyaslı müharibə başlamazdan əvvəl Rusiyaya pilotsuz uçan aparatların tədarükünü etiraf etməsi mənasız görünür: "Dronların Rusiyaya ötürülməsinin bu cür etirafı bir qədər qəribə görünür. Yəni müharibədən əvvəl mindən çox pilotsuz uçan aparatı təhvil vermişdilər, yalnız rusiyalılar döyüş meydanında müharibəni praktiki olaraq uduzduqdan sonra istifadə etməyə başlamışdılar. Belə çıxır ki, kritik infrastrukturumuzu dağıtmaq əvəzinə 8 ay anbarlarda qalmışdılar?"

Ukrayna rəsmisi eyni zamanda İranın cəzalandırılmasını istəyib: "Mənə elə gəlir ki, təkcə sanksiyalar və ya embarqo tətbiq etmək lazım deyil. Zənnimcə, dronların və ballistik raketlərin istehsalına və digər hərəkətlərə görə konkret zərbələr endirmək olardı".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri

**MAHMUD NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri

**MAHMUD NƏBİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri

**MAHMUD NƏBİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyalarının İttifaqı Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri

**MAHMUD YUSİF OĞLU NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri

**MAHMUD NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Fövqəladə Hallar Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri

**MAHMUD NƏBİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Apellyasiya Məhkəməsinin kollektivi Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri

**MAHMUD NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhəri Nizami Rayon Məhkəməsinin kollektivi Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri

**MAHMUD NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6484
Sifariş 3452
Qiyməti 40 qəpik